## Azərbaycandan turist axını 2 dəfəyə yaxın artıb



**Bu ilin yanvar-avqust aylarında Azərbaycandan xaricə gedən ölkə vətəndaşlarının sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 dəfə artaraq 983 min nəfər olub.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumata görə, son 1 ildə İrana gedən vətəndaşların sayı 3,4 dəfə, Türkiyəyə gedənlərin sayı 1,8 dəfə, Gürcüstana gedənlərin sayı 1,8 dəfə, Rusiyaya gedənlərin sayı isə 1,2 dəfə artıb.

Ölkə vətəndaşlarının 48 %-i Türkiyəyə, 17%-i Rusiya Federasiyasına, 11,4 %-i İrana, 8,4 %-i Gürcüstana, 15,2 %-i digər ölkələrə səfər edib. Gedənlərin 63,9 %-ni kişilər, 36,1 %-ni qadınlar təşkil edib.

## Ukrayna müharibəsində 39 jurnalist həlak olub




**Ukraynada Rusiya ilə genişmiqyaslı müharibə başlayandan bəri ölən jurnalistlərin sayı açıqlanıb.** Report xəbər verir ki, bu barədə mədəniyyət və informasiya naziri Aleksandr Tkaçenko məlumat verib. Onun sözlərinə görə, indiyədək Ukraynada 39 media işçisi həlak olub. "Bu gün jurnalist olmaq həqiqəti bütün dünyaya çatdırmaq üçün canını verməyə hazır olmaqdır. Bütün ölkəmiz kimi mən də onlara sonsuz minnətdaram", - A.Tkaçenko vurğulayıb.


❒ № 167 (5689), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 sentyabr 2022-ci il (şənbə)




## Baş Prokurorluq açıqlama yaydı

“Təqsirkarların məsuliyyətə cəlb edilməsi təmin olunacaq”

**Sənan Əhmədovun şəhid qardaşı Səbuhi Əhmədovun hərbi xidmət yerinə dəyişmək üçün bankdan kredit götürərək rüşvət verməsi barədə fikirlərinin əks olunduğu sosial şəbəkələrdə yayılmış video, həmçinin sonradan həmin cinayət xarakterli məlumatların təkzib edilməsi ilə bağlı səsləndirdiyi fikirlərin qeydə alındığı digər video üzrə obyektiv həqiqətin müəyyən edilməsi üçün prokurorluq orqanları tərəfindən əhəmiyyət kəsb edən bütün hallarla tam və hərtərəfli araşdırma aparılır.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən daxil olan məlumatda deyilir.

Qeyd edilir ki, hər iki xüsusat üzrə təqsiri müəyyən ediləcək şəxslərin məsuliyyətə cəlb edilməsi təmin ediləcəkdir.

(səh.2)



## Günün fotosunda dünyanın yarısı təmsil olunur

“Bu mənzərə Ermənistanın məğlubiyyətinin tablosudur”

**“Dünən Səmərqənddə lentə alınan tarixi foto dünyanın yenidən bölüşdürülməsinin, Ermənistanın məğlubiyyətinin fotosudur.**

Ukrayna müharibəsi başlayandan Qərb, Rusiya və Çin yeni oyunun arxasındadılar. Oyunda iştirak etməyən dövlətlər "qurbanlıq quzu" rolundadılar. Gücə ehtiyac var. Güc isə iqtisadiyyatda, müttəfiqlərdə, coğrafiyadadır”.

(səh.2)

# 2 gündür ki, atəşkəs rejiminə əməl olunur

Səmərqənddə Prezident İlham Əliyevin Vladimir Putinlə görüşü olub



“İndi əsas məsələ münasibətlərin başlanmaqda olan normallaşması prosesini pozmamaq, bu istiqamətdə irəliləməkdir”

**Sentyabrın 16-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.**

**Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin dedi:**

-Hörmətli İlham Heydər oğlu, Sizi bu dəfə Şanxay Əməkdaşlıq Təşkilatı məkanında, bu təşkilatın Sammitində görməyə çox şadam.

Bu gün biz həm təşkilatın özünün işi, həm də ikitərəfli münasibətlər, regionda vəziyyət barədə artıq dəfələrlə söhbət etmişik, fikir mübadiləsi aparmışıq.

İkitərəfli münasibətlərə gəldikdə, onlar inkişaf edir, çox uğurla inkişaf edir, şübhəsiz, bunu qeyd etmək lazımdır.

(səh.3)

## Daha 6 şəhidimizin adları açıqlanıb

Şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların sayı 77-yə çatıb



**Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısını alarkən Azərbaycan Silahlı Qüvvələrinin daha 6 hərbi qulluqçusu şəhid olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bununla da, erməni təxribatlarının qarşısını alarkən şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların sayı 77-yə çatıb.

*Qeyd edək ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.*

# Birincilərdən örnək

Əllərində şəhid fotoları tutan balalar əsl vətənpərvərlik dərsi keçdilər



**Bakı və Sumqayıtın bəzi məktəblərində ilk dərsə qədəm qoyan birincilər əllərində gül-çiçək yox, şəhid fotoları tutublar.**

Bir neçə məktəbdə müəllimlərin təşəbbüsü ilə birincilər əllərində şəhid şəkilləri ilə sinif otağına daxil olub.

Xatırladaq ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan ordusu tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən 70-dən artıq hərbçimiz şəhid olub.

(səh.2)



## Tuğ kəndinin bərpasına başlanılır

**Dövlət Turizm Agentliyi Xocavənd rayonunun Tuğ kəndində bərpa və tikinti işləri üçün layihə-smeta sənədlərinin hazırlanması üçün təkliflər sorğusu elan edib.**

"Report" xəbər verir ki, sorğuda iştirak etmək istəyənlər təkliflərini sentyabrın 28-i, saat 18:00-dək Bakı şəhəri, Nəsimi rayonu, Üzeyir Hacıbəyli küçəsi, 134 ünvanına təqdim edə bilərlər.

*Təkliflərə sentyabrın 29-da, saat 12:00-da Bakı şəhəri, Nizami küçəsi 96E ünvanında (İ "Landmark" iş mərkəzi) baxılacaq.*

## 5 nəfər vəfat edib

234 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 234 yeni yoluxma faktı qeydə alınıb, 337 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 819 124 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 807 433 nəfər müalicə olunaraq sağalıb, 9 881 nəfər vəfat edib, aktiv xəstə sayı 1 810 nəfərdir.

Ölkədə son sutka ərzində 2 929, hazırkı dövrədək isə 7 209 734 test aparılıb.

## Bakıda 150 min manatadək olan mənzillərə tələbat artıb



**Bakıda avqust ayında mənzil bazarında qiymət artımları davam edir.**

İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) Trend-ə verilən məlumata görə, qiyməti 150 min manatadək olan mənzillərə tələbin artması müşahidə olunub.

Qiyməti 150 min manatadək olan mənzillərin qiymətində 6 faiz artım qeydə alınıb. 150-250 min manat qiymət aralığında təklif olunan mənzillər 5 faiz dəyər qazanıb.

Əvvəlki aylardan fərqli olaraq avqust ayında daha bahalı mənzillərin qiymətində də 3 faiz artım qeydə alınıb.



## Pekin yeni yola fokuslanıb

Zəngəzur dəhlizi layihəsinin lehinə çalışanlardan biri də Çindir

(səh.3)

## Təxribatlara baxmayaraq sülh prosesi pozulmayacaq

Toğrul İsmayıl: “Sadəcə olaraq proses bir qədər ləngiyəcək və bir müddət sonra qaldığı yerdən davam edəcək”

(səh.5)



# 2 gündür ki, atəşkəs rejiminə əməl olunur

## Səmərqənddə Prezident İlham Əliyevin Vladimir Putinlə görüşü olub

**Sentyabrın 16-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.**

**Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin dedi:**

- Hörmətli İlham Heydər oğlu, Sizi bu dəfə Şanxay Əməkdaşlıq Təşkilatı məkanında, bu təşkilatım Sammitində görməyə çox şadam.

Bu gün biz həm təşkilatın özünün işi, həm də ikitərəfli münasibətlər, regionda vəziyyət barədə artıq dəfələrlə söhbət etmişik, fikir mübadiləsi aparmışıq.

İkitərəfli münasibətlərə gəldikdə, onlar inkişaf edir, çox uğurla inkişaf edir, şübhəsiz, bunu qeyd etmək lazımdır. Ticarətin, investisiyaların həcmi artır, müxtəlif nazirliklər, idarələr, parlamentlər xətti ilə əməkdaşlıq həyata keçirilir.

Lakin, əlbəttə, Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi bu gün hamımızı çox narahat edir. Biz Sizinlə bu barədə danışmışıq. Mən dünən gecə danışdım. Siz bunu bilirsiniz, mən bu barədə Sizi və Ermənistanın baş naziri Nikol Paşinyanı məlumatlandırmışam. Yaxşı ki, əlaqələndirilmiş səylərimiz sayəsində hər halda eskalasiyanı dayandırmaq mümkün olub, lakin mən belə başa düşürəm ki, hər halda vəziyyət gərgin olaraq qalır.

Sizinlə görüşmək, bütün bu məsələlər barədə söhbət etmək imkanına görə çox şadam, çünki onların hamısı vacibdir.



"İndi əsas məsələ münasibətlərin başlanmaqda olan normallaşması prosesini pozmamaq, bu istiqamətdə irəliləməkdir"

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

-Sağ olun, Vladimir Vladimiroviç. Yeni görüşümüzə çox şadam.

Bundan əvvəlki görüşümüzdən üç aydan az vaxt keçib. Lakin bu müddətdə də biz daim əlaqədə olmuşuq, telefonla danışmışıq, həmçinin ikitərəfli münasibətlərin çox müsbət dinamikasını görürük.

Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalanandan sonra da müxtəlif sahələr üzrə mühüm sənədlər imzalanıb və Sizin qeyd etdiyiniz kimi, bütövlükdə görürük ki, əmtəə dövriyyəsində və nəqliyyat sahəsində yükdaşımaların həcmi artır. Bundan əlavə, indi biz tranzit imkanlarımızın potensialını tam həcmdə işə salmaq niyyətindəyik. Belə ki, nəticələr göz qabağındadır. Əminəm ki, biz bu ili bütün istiqamətlər üzrə yaxşı nəticələrlə başa vuracağıq.

Ermənistan-Azərbaycan sərhədi zonasında vəziyyətin kəskinləşməsinə, eskalasiyaya operativ reaksiya verdiyinizə görə də Sizə təşəkkürümü bildirmək istərdim. Döyüş toqquşmaları 8 saatdan az davam edib və dayandırılıb. Doğrudur, erməni tərəfi atəşkəs rejiminə dərhal əməl etməyə başlamadı, lakin bütövlükdə artıq iki sutkaya yaxındır ki, atəşkəs rejiminə riayət olunur. Sərhəd münaqişələri olur. Lakin əsas budur ki, vəziyyəti sabitləşdirmək, onu dinc şəraitə keçirmək mümkün olub. Mənim indi yerlərdən aldığım informasiyaya görə, dediyim kimi, artıq iki günə yaxındır ki, vəziyyət sabitləşib. İndi əsas məsələ münasibətlərin başlanmaqda olan normallaşması prosesini pozmamaq, bu istiqamətdə irəliləməkdir.

Biz Rusiyanın bu istiqamətdə, o cümlədən Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat kommunikasiyalarına dair üçtərəfli komissiya çərçivəsində, delimitasiya prosesi çərçivəsində səylərini, habelə sülh sazişinə dair danışıqlara başlamaq planlarını alqışlayırıq. Əlbəttə, biz bunu ətraflı müzakirə edəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli sənədlərə sadiqdir və biz Qafqazda vəziyyətin sabit olması üçün nə lazımdırsa edəcəyik.

**Prezident Vladimir Putin:** Çox sağ olun.



# "Bütün ölkələr üçün faydalı olacaq"

## Prezident İlham Əliyev: "Zəngəzur dəhlizinin açılmasından sonra nəqliyyat imkanları daha da genişlənəcək"

**"Ermənistanın təxribatı normallaşma prosesinə böyük zərbədir". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqəndə keçirilən Sammitində çıxışı zamanı bildirib. Dövlət başçısı bildirib ki, Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib:**

"İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq. Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törədib. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə alıb. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

**"Azərbaycan Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir"**

Prezident bildirib ki, Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Dövlət başçısı deyib ki, Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir: "Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir. Azərbaycan 18 təyyarə ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayı bugünkü 7-dən 9-a çatdırılacaq".

Ölkə rəhbəri qeyd edib ki, bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib: "Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər. Bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb".

**"Azərbaycan beynəlxalq hüquq, ədalət prinsipləri əsasında fəaliyyətini davam etdirəcək"**

Dövlət başçısı bəyan edib ki, Azərbaycanın 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına sədrliyinin 1 il müddətinə uzadılması ölkəmizə olan etimadı göstərir: "Azərbaycan beynəlxalq hüquq, ədalət və qlobal təhlükəsizlik prinsipləri əsasında fəaliyyətini davam etdirəcəkdir". Ölkə rəhbəri qeyd edib ki, Qarabağ münaqişəsinin həll olunması yeni nəqliyyat və kommunikasiya layihələri üçün zəmin yaradıb: "Zəngəzur dəhlizinin açılmasından sonra nəqliyyat imkanları daha da genişlənəcək və bu, region üçün, bu marşrut üzərində yerləşən bütün ölkələr üçün faydalı olacaq".

**"BMT-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələri 27 il icra olunmayıb"**

Prezident vurğulayıb ki, bəzi aparıcı beynəlxalq təşkilatların fəaliyyətləri qeyri-səmərəli görünür. Dövlət başçısı 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazisindən tam çıxarılmasını tələb edən BMT qətnamələrini nümunə göstərib: "BMT-nin bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi təqdirdə, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələr 27 il icra olunmayıb".

Prezident İlham Əliyev Azərbaycanın özünün Qarabağ münaqişəsini hərbi-siyasi metodlarla həll etdiyini və qətnamələrin icrasını təmin etdiyini diqqətə çatdırıb.

**İsmayıl**

# Baş Prokurorluq açıqlama yaydı

## "Təqsirkarların məsuliyyətə cəlb edilməsi təmin olunacaq"



**Sənan Əhmədovun şəhid qardaşı Səbuhi Əhmədovun hərbi xidmət yerinə dəyişmək üçün bankdan kredit götürərək rüşvət verməsi barədə fikirlərinin əks olunduğu sosial şəbəkələrdə yayılmış video, həmçinin sonradan həmin cinayət xarakterli məlumatların təkzib edilməsi ilə bağlı səsləndirdiyi fikirlərin qeydə alındığı digər video üzrə obyektiv həqiqətin müəyyən edilməsi üçün prokurorluq orqanları tərəfindən əhəmiyyət kəsb edən bütün hallarla tam və hərtərəfli araşdırma aparılır.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən "Şərq"ə daxil olan məlumatda deyilir.

Qeyd edilir ki, hər iki xüsusat üzrə təqsiri müəyyən ediləcək şəxslərin məsuliyyətə cəlb edilməsi təmin ediləcəkdir.

Media nümayəndələri, habelə sosial şəbəkə istifadəçilərinin nəzərinə çatdırılır ki, aparılan araşdırma ilə bağlı rəsmi mənbələrlə dəqiqləşdirilməmiş məlumatların yayılması yolverilməzdir və qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Araşdırmanın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Xatırladaq ki, Sənan Əhmədov iki gün əvvəl verdiyi açıqlamada şəhid qardaşı Səbuhi Əhmədovdan "Komando" xüsusi briqadasına qəbul olmaq üçün 6 min manat rüşvət alındığını iddia edib. O, qardaşının həmin pulu bankdan kreditə götürdüyünü bildirib.

Bundan sonra Müdafiə Nazirliyinin ötən gün yaydığı məlumatda bildirilib ki, Sənan Əhmədovla Nazirlikdə görüş təşkil edilib. Sənan Əhmədovla onu narahat edən mövzu ilə bağlı ətraflı söhbət aparılıb. Qeyd edilib ki, müdafiə nazirinin tapşırığına əsasən hazırda məsələ ilə bağlı MN tərəfindən araşdırma aparılır.

Daha sonra isə Sənan Əhmədov qardaşından "Komando"ya qəbul edilmək üçün 6 min manat rüşvət tələb olunması məsələsi ilə bağlı yeni açıqlama verib. Şəhid qardaşı sözügedən 6 min manatın vəzifə dəyişikliyinə aidiyyətinin olmadığını bildirib.

# Birincilərdən örnək

## Əllərində şəhid fotoları tutan balalar əsl vətənpərvərlik dərsi keçdilər



**Bakı və Sumqayıtın bəzi məktəblərində ilk dərsə qədəm qoyan birincilər əllərində gül-çiçək yox, şəhid fotoları tutublar. Bir neçə məktəbdə müəllimlərin təşəbbüsü ilə birincilər əllərində şəhid şəkilləri ilə sinif otağına daxil olub.**

Xatırladaq ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan ordusu tərəfindən törədilən genişmiqsaylı təxribatın qarşısı alınarkən 70-dən artıq hərbçimiz şəhid olub. Bu səbəbdən Elm və Təhsil Nazirliyi Azərbaycanın bütün ümumi təhsil müəssisələrində Bilik Günü ilə bağlı nəzərdə tutulan təntənəli tədbirləri ləğv edib.

**Millət vəkili Elman Məmmədov isə "Şərq"ə açıqlamasında deyib ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların göstərdikləri igidlik və şücaətin təbliği istiqamətində orta məktəblərdə hər zaman məqsədyönlü işlər görülür.** Təsadüfi deyil ki, yeni tədris ilində I-XI siniflərdə ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub: "Birincilərin əllərində şəhid fotoları ilə sinif otağına daxil olması həm övladlarımızın təlim-tərbiyəsi, onların vətənpərvərlik ruhunda böyüməsi, həm də şəhidlərimizin adının, rəsminin yaddaşlarda həkk olunması üçün ən gözəl nümunədir. İllər keçsə də o balaca birincilər fotosunu əllərində başlarının üstünə qaldırdığı şəhidin adını, üzünü xatırlayacaq. Şagirdlərin düşüncələrinə və onların vətənpərvərlik ruhuna təsir edəcək. Şəhidlər bizim qürur mənbəyimizdir. Onları heç vaxt unutmayacağıq və qəlbimizdə hər zaman yaşayacaqlar. Onların Vətən, torpaq uğrunda öz canlarından keçməsi sayəsində bizim körpə balalarımız birinci sinfə gedə, təhsil ala, qayğısız uşaqlıq yaşaya bilirlər. Bu körpələr indidən bilməlidir ki, alnıaçıq, qalib dövlətin, qalib millətin nümayəndəsi olduğumuz üçün şəhidlərimizə borcluyuq. Nəinki birincilər, hətta təzə dil açan balalarımıza da "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycan! şüarını öyrətməliyik".

**Şəymən**



# Daha 6 şəhidimizin adları açıqlanıb

## Şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların sayı 77-yə çatıb

**Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısını alarkən Azərbaycan Silahlı Qüvvələrinin daha 6 hərbi qulluqçusu şəhid olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bununla da, erməni təxribatlarının qarşısını alarkən şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların sayı 77-yə çatıb.

Qeyd edək ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısının alınması zamanı şəhid olan hərbi qulluqçuların siyahısı

**Hüseynli Rəşad Ramiz oğlu - baş çavuş**
**Balaşzadə Röyal Atduxan oğlu - əsgər**
**Kəlbiyev İsa Rəhim oğlu - əsgər**
**Qarazadə Nicat Malik oğlu - əsgər**
**Qənbərli Rəşad Əlizamin oğlu - əsgər**
**Süleymanov Turxan İdris oğlu - əsgər**

# Ermənistan üzərində əlavə təzyiq hiss edəcək

## "Çin Zəngəzur dəhlizi ideyasını tam dəstəkləyir"



**Özbəkistanın Səmərqənd şəhərində sentyabrın 15-16-da Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin sammiti keçirilib.**

ŞƏT-in Zirvə toplantısında gündəliyə iki əsas məsələ regionda sülhün, təhlükəsizliyin təmin olunması, eyni zamanda, nəqliyyat-kommunikasiya əlaqələrinin qurulması daxil edilib. Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlət başçımız İlham Əliyev də fəxri qonaq qismində iştirak edib.

**Politoloq İlqar Vəlizadə ŞƏT-ə üzv ölkələrin sammitində müzakirə olunan mövzulardan "Şərq"ə danışarkən qeyd edib ki, toplantıda ölkəmizin gələcək taleyi ilə bağlı bütün məsələlər, xarici siyasətimizin strategiyasına təsir göstərən amillər müzakirə olunub:**

"Sammitdə irimiqyaslı nəqliyyat enerji layihələrinin həyata keçirilməsi, digər tərəfdən əsas aparıcı beynəlxalq regional ölkələrlə dialoqlar nəzərdə tutulur. Azərbaycan bütün aparıcı Asiya ölkələri ilə faydalı dialoq qurur.

Prezidentimiz Çin Xalq Respublikasının sədri ilə də danışıb. Bu dialoq hər iki ölkənin maraqlarına cavab verib. İndi "Bir kəmər, bir yol" layihəsinin reallaşması məsələsi çox önəmli mərhələyə qədəm qoyur.

Çünki onun şimal, Rusiyadan keçən hissəsi demək olar ki, işləmir. Ən işlək faydalı mərkəzi koridor adlanan hissəsi isə məhz Azərbaycandan keçir. Burda bizim üçün ən önəmli məsələlərdən biri də yeni regional dəhlizlərin açılmasıdır. Çin Azərbaycanın mövqeyini, o cümlədən Zəngəzur dəhlizi ideyasını tam dəstəkləyir. Bu fakt isə Ermənistana əlavə təzyiq vasitəsidir.

Məlumdur ki, rəsmi İrəvan Zəngəzur dəhlizinin hələ də rellaşdırılmamasında əsas səbəbkardır. Paşinyanın son açıqlamaları da Ermənistanın bunu istəmədiyini göstərdi. Bildiyimiz kimi Nikolun başı öz biabırçı siyasətinə qarışdığı üçün, o, sammitdə iştirak etmədi.

Amma aparıcı regional qüvvələr Çin, Özbəkistan, Qazaxıstan, Rusiya və Türkiyə Zəngəzur dəhlizinin açılmasına maraq göstərirlər. Burda onların özlərinin də iqtisadi maraqları var.

**Günəş Mərd**




# Pekin yeni yola fokuslanıb

## Zəngəzur dəhlizi layihəsinin lehinə çalışanlardan biri də Çindir

**İsmayıl Qocayev**

**Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub. Görüşdə Sədr Si Cinpin Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının otuz illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycanla Çin arasında əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır və yüksək səviyyədə inkişaf edir:**

"Sizin Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafına mühüm əhəmiyyət verməyinizi çox yüksək qiymətləndiririk. Biz əlaqələrimizin strateji səviyyədə hərtərəfli inkişafını dəstəkləyirik". Si Cinpin ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirdi və Azərbaycanın da Çinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib. Sədr Si Cinpin bildirib ki, dövlətlərin işlərinə qarışmamaq vacib prinsipdir. Prezident İlham Əliyev Çinin lideri ilə görüşdən çox məmnun olduğunu və əvvəlki görüşlərini məmnuniyyətlə xatırladığını, xüsusilə "Bir kəmər, bir yol" Forumunda iştirak etmək üçün Çinə səfərini yüksək qiymətləndirdiyini vurğulayıb. Dövlətimizin başçısı da Azərbaycan ilə Çin arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti "Orta dəhliz", "Bir kəmər, bir yol" layihələri çərçivəsində də əməkdaşlıq və tərəfdaşlıq üçün böyük perspektivlərin olduğunu vurğulayıb. Bəyan edib ki, Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol oynayır və ölkəmizin nəqliyyat-logistika imkanları beynəlxalq yük daşımalarında böyük əhəmiyyətə malikdir. Azərbaycan Çindən Avropaya və əks-istiqamətdə qatarlarla və digər yükdaşımaların artırılmasını tam şəkildə dəstəkləyir. Prezident qeyd edib ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirir. Çinin bir çox şirkətləri də bu işlərdə iştirak üçün müraciət edib. Azərbaycan Çin şirkətlərinin bu layihələrə daha fəal şəkildə cəlb olunmasını dəstəkləyir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Azərbaycan və Çin liderləri arasında Səmərqənddə keçirilən görüş Bakı-Pekin münasibətlərində qarşılıqlı ehtiyacların aktuallaşdığını göstərir. Analitikin fikrincə, Əliyev-Cinpin danışıqlarının rəsmi məlumatlardan kənar istiqamətlərini aydınlaşdırmaq üçün bir neçə məqama diqqət yetirmək lazımdır:** "İlk olaraq Çinin dünya arenasındakı çıxışını təmin edən baza prinsplərinə konseptual şəkildə baxaq. Qlobal güc yarışında Çin spesifik yanaşmalarla çıxış edir və özünü əlahiddə bir güc kimi aparmağı bacarır. Çinin xarici siyasətinin şəkilləndirilməsi iqtisadi layihələrə, logistika mərkəzlərinə genişmiqyaslı investisiyalar yatırmaqla hüdudsuz forma alan iqtisadi ekspansiya ilə reallaşdırılır. Çin heç bir ölkənin ərazisini işğal etmək fikrinə düşmür, heç bir ölkənin daxili işlərinə insan hüquqları və ali dəyərlər mövzusu ilə qarışmır. Pekin ancaq iqtisadi güc alətləri ilə özünün qlobal maraqlarını inkişaf etdirir. Azərbaycan-Çin əməkdaşlığına gəlincə, ikili münasibətlərin sferası siyasi əlaqələr, infrastruktur əlaqələr, ticarətin inkişafı, maliyyələşdirmə sahəsində qarşılıqlı əlaqələr, Çin mərkəzli beynəlxalq nəqliyyat dəhlizlərində müştərək maraqlar zəminində böyüyür. Azərbaycan Çinin gücünü qiymətləndirir və xarici siyasət kursunda Çinlə əlaqələrin dinamikasına xüsusi önəm verir. Bakı ilə Pekinin ikili istək və niyyətləri qlobal düzənin laxladılması fonunda şəraitə uyğun ikitərəfli əməkdaşlıq proqramını hazırlamaq planını aktuallaşdırır. Bakı-Pekin münasibətlər sistemindəki maraqlar indi Orta Dəhliz məntiqində fokuslanır, Çin həyata keçməsi gözlənilən Zəngəzur dəhlizi layihəsini iqtisasi ekspansiyasına calamaq üçün addımlar atır. Nəzərə alaq ki, dünyanın əksər regionlarında formalaşmaq üçün cücərən istənilən iqtisadi layihədə Çin pay almağa girişir. Bu işi bəzən açıq, hərdən çox gizli şəkildə ustalıqla bacarır. Çin Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanını "Transxəzər Şərq-Qərb Nəqliyyat Dəhlizi"nə inteqrasiya etdirir. Bununla da Çindən Qərbə yükdaşımalar üçün qısa və əlverişli alternativ marşrut yaradılıb".

> "Bu gedişatlar Ermənistanı yeni düzəndə də regional təcrid içərisinə daxil edəcək"

*A.Kərimova görə, Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə məmnuniyyətlə qoşulub və onun əvəzsiz həlqəsinə çevrilib. Çin Azərbaycanın təşəbbüsünü İpək Yolu üzrə keçidlərin birləşdirilməsində əlverişli marşrutu təmin edəcək Zəngəzur dəhlizinin işə salınmasını əhatə edən dəstəkləyici mexanizmləri formalaşdırır:* "Zəngəzur dəhlizi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri vasitəsilə Avropanı Çinlə birləşdirən nəqliyyat marşrutu olan orta dəhlizin potensialını artıracaq, Pekin bu məqsədlə Bakının bu iqtisadi layihəsinə dəstək verir. Zəngəzur dəhlizi Rusiya, Türkiyə, ABŞ və Avropa İttifaqının da maraq dairəsində məxsusi yer tutduğundan deyə bilərik ki, bu layihə üzərində ən böyük çəkişmə ABŞ və Çin arasında gedəcək. Nəticə etibarı ilə Zəngəzur dəhlizi layihəsinin lehinə çalışanlardan biri də Çindir. Elə buna görədir ki, Si Cinpin Prezident İlham Əliyevlə görüşdə Azərbaycan-Ermənistan sərhədindəki son toqquşmalar fonunda Azərbaycanın ərazi bütövlüyünə ehtiramını ifadə edib. Ölkə başçımız da eyni məzmunda Çinin ərazi bütövlüyünə və suvrenliyinə dəstəyini göstərib. Bu gedişatlar Ermənistanı yeni düzəndə də regional təcrid içərisinə daxil edəcək. Azərbaycanı Çinin cazibə mərkəzinə gətirən faktorlardan biri də, Xəzər dənizindəki təsdiqlənmiş və ya təsdiqlənməmiş zəngin karbohidrogen ehtiyatlarıdır. Çin perspektiv üçün həmin ehtiyatları rəqibləri üzərində digər iqtisadi rıçaqlar qazandıran potensial kimi nəzərdən keçirir. Ələt Azad İqtisadi Zonası da çinli investorlar üçün cəlbedicidir. Pekinin Azərbaycanın işğal edilmiş ərazilərindəki iştirakını da bura əlavə etsək, Çinin regionda iqtisadi fəallığını daha geniş çərçivə ilə artırdığını deyə bilərik".

# Ermənistanla sərhəddə təhlükəsiz zona yaradılmalıdır

## İşğaldan azad olunmuş ərazilərə köçürüləcək insanların rahat yaşaması şərtdir



**Azərbaycanın Ermənistanla sərhədində təhlükəsiz zona yaradılması təklif edilir. Bu təkliflə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında komitə sədri Ziyafət Əsgərov çıxış edib. Onun sözlərinə görə, həmin ərazilərə köçürüləcək insanlar rahat yaşamalıdır:**

"Biz təklif edirik ki, Ermənistanla sərhəddə təhlükəsiz zona yaradılsın və ora köçürüləcək məcburi köçkünlərimiz özlərini rahat hiss etsinlər". Z.Əsgərov bildirib ki, Ermənistan hər zaman təxribatlara əl atır: "Paşinyan Brüsseldə başqa şey danışır, ölkəsinə gələndə isə başqa cür hərəkət edir".

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə deyib ki, hüquqi baxımdan Azərbaycan-Ermənistan sərhədi anlayışı yoxdur. Partiya rəhbəri vurğulayıb ki, Azərbaycan müstəqil olandan bu yana Ermənistanla müharibə vəziyyətindədir:** "Ona görə də sərhədlərin delimitasiyası, demarkasiyası baş tutmayıb. Yəni Azərbaycanla Ermənistan arasında sərhəd anlayışı şərtidir. İndiki dövrdə buna Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xətti deyə bilərik. Əvvəlcə müəyyən olunmalıdır ki, Azərbaycan və Ermənistan sərhədləri hansı xəritələrlə müəyyənləşəcək. Digər yandan sərhəd bölgələrində bizim olan ərazilərin müəyyən müddətə "təhlükəsiz zona" elan edilməsini də doğru saymıram. Bir müddət sonra ermənilər həmin ərazilərə də iddia edəcək. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqda bəlli sərhədləri var idi. İndiki sərhədləri də həmin ərazilər daxil olmaqla müəyyənləşdirmək lazımdır. 1922-ci ildə SSRİ-yə daxil olduqda belə sərhədləri bəlli olan bir ölkə kimi ittifaqa qoşulmuşduq. Sərhədlərin müəyyən olunmasında həmin dövrün xəritələri əsas götürülməlidir. Sərhədlər dəqiq müəyyən olunandan sonra "təhlükəsiz zona" və ya "tampon zona" yaradıla bilər. Bu, daha məqsədəuyğun olar və dünya praktikasında da var. Azərbaycan öz ərazilərinin və əsgərlərinin təhlükəsizliyini təmin etmək üçün "təhlükəsiz zona" yaratmalıdır. Ermənistan tərəfinin davamlı təxribatları, sülhpərvər olmaması bunu labud edir. Əgər belə bir təklif olarsa, AĞ Partiya olaraq dəstək verəcəyik. Lakin yenə deyirəm, sərhədlərin müəyyənləşməsindən sonra bu məsələni gündəmə gətirmək lazımdır".

**İsmayıl**

# Ordumuzun vəzifə və tapşırıqları çoxalıb

## Müdafiə və təhlükəsizlik xərclərinin artırılması təbii qarşılanmalıdır



**"Azərbaycanın 2023-cü il üçün müdafiə və təhlükəsizlik xərclərini 5 faiz artırması təsadüfi deyil. Çünki Azərbaycan Ordusunun hazırda yerinə yetirdiyi vəzifə və tapşırıqların miqyası əvvəlki illərlə müqayisədə daha da çoxalıb".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.*

Onun sözlərinə görə, hazırda Azərbaycan Ordusu öz tarixi torpaqlarında vəzifələrini icra edir: "Dünyada qiymət artımı da mövcuddur. Orduya görə alınan ərzaqdan tutmuş silaha qədər hər bir avadanlıq, vasitə və silah dəyərlərində də bəlli artım müşahidə edilməkdədir. Azərbaycan gələcəkdə ərazilərimizin, müstəqilliyimizin qorunmasında, təhlükəsizliyinin təmin olunmasında heç bir xərcdən çəkinmir.

Həmin xərclərin zərurət yarandığı miqdarda artırılması davam edəcək. İstənilən halda müsbət addımdır. Bu, müdafiə və təhlükəsizlik sektorunda çalışan hərbçilərin, eləcə də vətəndaşların rifah səviyyəsinin yüksəldilməsində müsbət rol oynaya bilər".

Qeyd edək ki, Azərbaycanda müdafiə və təhlükəsizlik xərcləri 5 faiz artırılır. Azərbaycanda 2023-cü ilin dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin 5 320,1 milyon manat olması nəzərdə tutulub. Məlumata görə, bu, 2022-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 4,6 faiz çoxdur.

**Aygün Tahir**

# Ermənistan BMT-nin siyasi dəstəyini ala bilmədi

## Çünki təşkilat Azərbaycanın regionda yaratdığı yeni reallıqlar qəbul edir



**Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının Azərbaycan-Ermənistan sərhədində yaranmış vəziyyətlə əlaqədar fövqəladə iclası keçirilib. İclasda BMT baş katibinin köməkçisi Miroslav Yença, Azərbaycan və Ermənistanın BMT yanında daimi nümayəndələri - Yaşar Əliyev və Mqer Marqaryan, həmçinin bir sıra ölkələrin nümayəndələri iştirak ediblər.**

Toplantıda çıxış edən ölkələrin nümayəndələri Ermənistan-Azərbaycan sərhədində artan gərginlikdən və hər iki tərəfdən itkilər barədə məlumatlardan ciddi narahat olduqlarını bildiriblər. Bundan başqa, sərhəddə gərginliyin azaldılmasına kömək etmək üçün səylərin gücləndirilməsinin vacibliyi qeyd edilib. İrəvan və Bakı gərginliyi azaltmaq üçün siyasi iradə nümayiş etdirməyə çağırılıb. Qeyd olunub ki, beynəlxalq ictimaiyyət bu cür hadisələrin təkrarlanmaması üçün səy göstərməlidir. Yaşar Əliyev Ermənistanın BMT-dəki daimi nümayəndəsinin çıxışı zamanı səsləndirilən ittihamların, əsassız və böhtan xarakterli olduğunu vurğulayıb: "Biz Ermənistan nümayəndəsinin iddialarını qətiyyətlə rədd edirik. Standart uydurmalar, təhriflər və aldatmalarla dolu bu bəyanatlar Ermənistanın beynəlxalq öhdəliklərini yerinə yetirməkdən, regionumuzda sülh, sabitlik və əməkdaşlığı təşviq etməkdən nə qədər uzaq olduğunu nümayiş etdirir". Səfir otuz il Azərbaycanın ərazilərini işğalda saxlayan Ermənistanın beynəlxalq hüquqdan danışmasını tamamilə təzadlı adlandırıb. Y.Əliyev Azərbaycanın guya Ermənistandakı mülki obyektləri hədəfə aldığı barədə iddiaların yalan olduğunu söyləyib. Məhz Ermənistanın 2020-ci ildə Azərbaycanın Gəncə və Bərdə şəhərlərindəki mülki binaları iri çaplı silahlardan atəşə tutduğunu vurğulayıb. Əlavə edib ki, Ermənistana qarşı hər zaman humanizm nümayiş etdirən Azərbaycan dövləti cinayət məsuliyyətinə cəlb edərək mühakimə etdiyi bir neçə erməni hərbi qulluqçunu qarşı tərəfə təhvil verib.

**Milli Cəbhə Partiyasının sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, BMT təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan sərhədində baş verən hərbi vəziyyətlə əlaqədar fövqəladə toplantısında Azərbaycanın əleyhinə əlahiddə hansısa qərar qəbul edilmədi. Ekspertin fikrincə, bu, Azərbaycanın diplomatik müstəvidə Ermənistan üzərində qələbəsidir:** "Demək olar ki, BMT səviyyəsində Azərbaycanın regionda yaratdığı yeni reallıqlar qəbul edilir. Ermənistanın BMT Təhlükəsizlik şurasından və KTM-dən gözləntiləri reallaşmadı. Artıq Rusiyanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında atəşkəs əldə edilib. Nikol Paşinyan razılaşmalara əməl etməzsə, hərbi toqquşmaların davam etməsi istisna deyil. Baş nazir yenidən Rusiya Prezidenti V.Putinlə telefonla danışıb. Görünən odur ki, Paşinyan Qərbdə bir mövqe sərgiləyir, Rusiyada isə tamam başqa mövqe ortaya qoyur. Ona görə də Ermənistan BMT-nin, beynəlxalq birliyin siyasi dəstəyini ala bilmir. Azərbaycan həm diplomatik, həm də hərbi müstəvidə Ermənistanı üstələyib. ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri Paşinyanı Moskvanın təzyiqlərindən qorumaqdır. Göründüyü kimi ABŞ Azərbaycan və Ermənistan arasında vasitəçi olaraq sülh müqaviləsinin bağlanmasında maraqlıdır. Amma Rusiyanın buna şərait yaratmayacağı, Moskvanın təşəbbüsü ilə sülh müqaviləsinin bağlanması istisna deyil. Çünki Rusiya Brüssel formatını da fiaskoya uğradıb. Təbii ki, Paşinyanın siyasi iradəsizliyindən bu proseslər baş verir. O, Moskvadan uşaqlaşmayınca ölkəsində siyasi sabitlik mümkün olmayacaq".

**İsmayıl Qocayev**



# Putin Ukraynada artıq müharibənin bitməsini istəyir

## "Lakin rəsmi Kiyev danışıqlardan imtina edir"

**"Türkiyə terrorun bütün formaları ilə mübarizəni qərarlı şəkildə davam etdirir".**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində çıxışı zamanı deyib. Ərdoğan bildirib ki, terror, təəssüf ki, sərhəd tanımayaraq bütün ölkələrə təsir edir: "Türkiyə on minlərlə vətəndaşının terror qurbanı olduğu terrorun qanlı üzünü çox yaxşı bilən bir ölkədir". O qeyd edib ki, ölkəsi 40 ilə yaxındır ki, terrorla mübarizə aparır: "Çox zaman yalnız buraxılsaq da, PKK, PYD/YPG, FETÖ və İŞİD də daxil olmaqla, terrorun bütün formaları ilə mübarizəmizi qərarlı şəkildə davam etdiririk".

**"Türkiyə son 20 ildə nəqliyyat sahəsində çox önəmli uğura imza atıb"**

Ərdoğan vurğulayıb ki, orta dəhlizin Qafqaz, Çin, Mərkəzi Asiyada mühüm bir arteriya olaraq bölgədə stabilliyin və inkişafın təmin edilməsində böyük rol oynadığı bəllidir. O qeyd edib ki, Türkiyə son 20 ildə nəqliyyat sahəsində nəhəng yatırımları ilə çox önəmli uğura imza atıb: "Ölkəmizin Qərb və Şərq arasında körpü olmağı bizə müqayisəolunmaz imkanlar yaradır. Bu məqsədlə təhlükəsizlikdən iqtisadiyyata, energetikadan nəqliyyata, kənd təsərrüfatından turizmə qədər hər bir sahədə əməkdaşlığa hazırıq".

Rusiya Prezidenti Vladimir Putin də BMT katibliyini Avropa İttifaqından Rusiya gübrələrinin üçüncü ölkələrə ixracına qoyulan məhdudiyyətləri aradan qaldırmağı tələb etməyə çağırıb. Putin Rusiya Federasiyasının inkişaf etməkdə olan ölkələrə pulsuz olaraq 300 min ton gübrə göndərməyə hazır olduğunu təsdiqləyib: "Bizim birliyimiz qeyri-blok xarakterlidir, biz dünyanın aparıcı iqtisadiyyatlarında maliyyə və energetika sahəsində bir sıra sistemli səhvlər nəticəsində yaranan dünyada artan enerji və ərzaq problemlərinin həllinə yardım edirik".

**"Dünya siyasətində və iqtisadiyyatında geri dönüşü olmayan dəyişikliklər baş verir"**

Putin Rusiyanın siyasətində heç bir "eqoizm" olmadığını vurğulayıb: "Ümid edirik ki, iqtisadi əməkdaşlığın digər iştirakçıları da öz siyasətlərini eyni prinsiplər üzərində quracaqlar. Proteksionizm, qeyri-qanuni sanksiyalar və iqtisadi eqoizm alətlərindən öz məqsədləri üçün istifadə etməyi dayandıracaqlar". Putin dünya siyasətində və iqtisadiyyatında geri dönüşü olmayan dəyişikliklərin baş verdiyini qeyd edib: "Dünya siyasətində və iqtisadiyyatında fundamental transformasiyalar formalaşıb və onlar geri dönüşü olmayan xarakter daşıyır".

**"Rusiya gələn il dünya bazarlarına 50 milyon ton taxıl çıxaracaq"**

Putin əlavə edib ki, Rusiya ərzaqları bir çox ölkələrə gedir: "Əsasən, qida məhsullarımızın 90 faizə qədəri Asiya, Afrika və Latın Amerikası bazarlarına gedir. Rusiya dünya bazarlarına taxıl ixracını artırır. Bu il 30 milyon ton olacaq, gələn il 50 milyon tona çatdıracağıq".

Putin Hindistanın baş naziri Narendra Modi ilə görüşündə deyib ki, Rusiya Ukraynadakı münaqişənin mümkün qədər tez bitməsi üçün hər şeyi edəcək, lakin Kiyev danışıqlardan imtina edir: "Ukraynadakı münaqişə ilə bağlı mövqeyinizi, daim ifadə etdiyiniz narahatlığınızı bilirəm. Bütün bunların mümkün qədər tez bitməsi üçün hər şeyi edəcəyik". Bununla yanaşı, Putin Ukrayna rəhbərliyinin danışıqlar prosesindən imtina etdiyini bəyan etməsindən təəssüfləndiyini söyləyib. O qeyd edib ki, Ukrayna hərbi yolla öz məqsədlərinə çatmaq istəyir.

**İsmayıl**

# Pakistanla münasibətimiz Hindistanı qıcıqlandırır

## Ancaq onlar bilməlidir ki, Azərbaycan münaqişəni başlayan tərəf deyil, təcavüzkar Ermənistandır



İsmayıl Qocayev

**Sentyabrın 15-də BMT-nin Təhlükəsizlik Şurasının toplantısında Azərbaycanla Ermənistan sərhədində yaranan vəziyyət müzakirə edilib. Toplantıda ayrı-ayrı ölkələrin nümayənədələri, o cümlədən münaqişə tərəfləri olaraq Azərbaycan və Ermənistan təmsilçiləri çıxış ediblər. Bəzi ölkələrin nümayəndələrinin çıxışları onların münaqişə ilə bağlı mövqeyini də ortaya qoyub. Hindistan nümayəndəsinin mövqeyi Azərbaycan ictimaiyyətində birmənalı qarşılanmayıb, hətta tənqidlərə səbəb olub.**

Çünki Hindistan nümayəndəsi deyib ki, ”təcavüzkar tərəf (Hindistan nümayəndəsi təcavüzkar dedikdə Azərbaycanı nəzərdə tutduğu iddia olunur) dərhal hərbi əməliyyatları dayandırmalıdır”. Xatırladaq ki, həmin ərəfələrdə Prezident İlham Əliyev də Səmərqənddə Pakistan Baş naziri Şahbaz Şəriflə görüşüb. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini dəstəkləyir və bu məsələdə Pakistan ilə həmrəydir. Prezident diqqətə çatdırıb ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə kontakt qrupun üzvüdür. Hindistanın Bakıdakı səfirliyindən isə bildirilib ki, yeni Dehlini təmsil edən nümayəndə konkret ölkə adı çəkməyib: ”Ümumiyyətlə, bu məsələ səfirlik tərəfindən şərh edilmir”.

**Politoloq Turab Rzayev ”Şərq”ə bildirib ki, Hindistan nümayəndəsinin açıqlaması uğursuz bəyanatdır. Analitik deyib ki, düzdür, mövqedə Azərbaycanın adı açıq şəkildə çəkilməyib. Ona görə də rəsmi Dehliyə diplomatik cavab vermək ehtiyacı yaranmır:** ”Hindistanlı nümayəndənin cümləsində ”təcavüzkar tərəf” ifadəsi keçir. Biz müdafiə olunan tərəfik, təcavüz edən tərəf deyilik. Ancaq reallıq ondadır ki, Hindistanın bəzi rəsmiləri buna bənzər açıqlamalar verir və dolayı yolla ölkəmizi ittiham edirlər. Pakistan-Azərbaycan münasibətləri, 44 günlük müharibədə rəsmi İslamabadın verdiyi dəstək Hindistanda qıcıq doğurur. Hindistanda getdikcə artan hindu millətçiliyi müşahidə olunur. Onlar daxildə müsəlmanlarla konfliktdə olduqlarına görə istər-istəməz Azərbaycan-Ermənistan münaqişəsinə xristian-müsəlman mübarizəsi kimi baxırlar. Bəzən hakim partiyanın gənclik qanadından da Azərbaycan əleyhinə açıqlamalar yayılır. Onu da nəzərə alaq ki, ermənilərin uzun zamandır qurduğu bir şəbəkə var. Hindistanla ticari əlaqələri, orada ermənilərə məxsus kilsələri var. Hindistanda Azərbaycana qarşı mövqe sərgiləyən şəxslərə müraciət edə, onlara haqlı mövqeyimizi çatdıra bilərik. Hindistan ictimaiyyəti də bilməlidir ki, Azərbaycan münaqişəni başlayan tərəf deyil, təcavüzkar Ermənistandır”.

***Ekspert xatırladıb ki, Hindistan və Azərbaycan Qoşulmama Hərəkatının (QH) üzvüdür:*** ”Bizi əksər beynəlxalq platformalarda məhz Qoşulmama Hərəkatının üzvləri dəstəkləyiblər. 44 günlük müharibə zamanı BMT-nin əleyhimizə çıxarmaq istədiyi qətnamələr QH-nin üzvlərinin vetosu sayəsində qəbul olunmadı. Görünür, bu hərəkat çərçivəsində Hindistanla əlaqələri daha da genişləndirməyə ehtiyac var. Hindistanla normal iqtisadi-mədəni əlaqələrimiz olub. Münasibətlərin zəifləməsinə, ikinci plana keçməsinə imkan vermək olmaz. Xüsusən, Pakistanla olan yaxın əlaqələrimiz Hindistanla münasibətlərimizə zərbə vurmamalıdır. Amerika Birləşmiş Ştatları bizə qarşı 907-ci düzəlişi qəbul etdikdən sonra belə Vaşinqtonla münasibətlər müsbət yöndə inkişaf etməyə başladı. ”Əsrin müqaviləsi” imzalandı, ABŞ Azərbaycanın sərhəd qoşunlarına hərbi yardımlar etməyə başladı. Hindistanla bağlı məsələdə də irəliləyişə nail olmaq mümkündür və müəyyən qədər balansı qorumaq lazımdır. Hindistan kimi bir ölkəni Azərbaycana qarşı çevirmək olmaz. Hindistan Çindən sonra Asiyanın ikinci böyük ölkəsidir. Dünyanın 5-ci iqtisadi gücüdür. Belə bir dövlətlə əlaqələri korlamaq xeyrimizə deyil”.



# Günün fotosunda dünyanın yarısı təmsil olunur

## “Bu mənzərə Ermənistanın məğlubiyyətinin tablosudur”



**”Dünən Səmərqənddə lentə alınan tarixi foto dünyanın yenidən bölüşdürülməsinin, Ermənistanın məğlubiyyətinin fotosudur. Ukrayna müharibəsi başlayandan Qərb, Rusiya və Çin yeni oyunun arxasındadılar. Oyunda iştirak etməyən dövlətlər ”qurbanlıq quzu” rolundadılar. Gücə ehtiyac var. Güc isə iqtisadiyyatda, müttəfiqlərdə, coğrafiyadadır”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.*

Onun fikirlərinə görə, Amerikasız, Qərbsiz, qlobal güclərin regional gücə çevrilmə dönəminin yaşandığı anın görüntüsüdür: ”Azərbaycan Rusiya və İranla qonşudur. Şərqlə Qərb, Avropa - Asiya, Şimal-Cənub arasındadır. Türk dünyası ilə birlikdədir. Möhtəşəm geosiyasi mövqeyə malikdir.

Həmin fotonun tarixçəsinə qədər prosesləri düzgün incələyib. Ukrayna və Rusiya ilə saziş imzalayıb. Qarabağ məsələsinin böyük ölçüdə həllinə nail olub. Növbəti addım kimi sözügedən masada müzakirə edəcəyimiz hədəflərin dünyanın gücü tərəfindən də qəbul edilməsinin fotosudur.

Türk dünyasının ağırlığının, Rusiyanın həqiqətləri qəbul etməsinin, ŞƏT-də Çindən başlayıb Böyük Britaniyayadək davam edən ”İpək yolu”nun senarisinin təzahürüdür. Gələcəkdə güclü dövlətlər öz mövqelərini diktə edəcəklər. Dünyanın yarısı fotoda təmsil olunur. Dünya ərazisinin, iqtisadiyyatının, siyasi gücünün üçdə biri deməkdir. Yeni dünyanın müxtəlif qütblərə bölünməsi və yaxud yenidən bölünməsinin görüntüsüdür”.

*Qeyd edək ki, sentyabrın 15-də Özbəkistanın Səmərqənd şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) növbəti sammiti baş tutub. Həmin gün dövlət başçılarının Səmərqənddə qeyri-formal görüşü gerçəkləşib.*

*Zirvə görüşündə liderlərin qeyri-rəsmi məclisindən çəkilən şəkil sosial şəbəkələrdə günün ən çox paylaşılan fotosu olub.*

*ŞƏT-in sammitinin sentyabrın 15-16-da baş tutması nəzərdə tutulub.*

**Aygün Tahir**



# Gənc, qoca, gəlin tanımır

## Narkomaniya hər ailənin qapısını döyə bilər

Məlahət Rzayeva

**Hüquq-mühafizə orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı vaxtaşırı əməliyyatlar keçirir, narkotik maddələrin satışı, yayılması ilə məşğul olan şəxslər yaxalanır. Məlumdur ki, narkotik maddələrin dövriyyəsi və satışı dünyada ən bahalı və ən gəlirli sahədir. Gəlirlərini artırmaq üçün şəbəkə yeni-yeni qurbanlar ”tapır”.**

Uşaq, gənc, qoca, qız, gəlin... Fərq etmir. Təki alıcı - qurban olsun. Bu işlə məşğul olanlar sıx şəbəkələşib və onlarla dünyanın super-gücləri də bacarmır. Bu öz yerində. Lakin ictimaiyyəti daim narahat edən, narkotik alverçilərinin tutulduqları qədər də sərbəst buraxılmalarıdır. Hətta sıravi vətəndaş da bilir ki, polisin yaxaladığı narkotik alverçisi bir neçə gündən sonra azadlığa çıxır və yenə öz peşəsini davam etdirir. ”Niyə belədir?” sualının bir cavabı da (çünki başqa amillər də olur, bəzən M.R. ) narkotik, psixotrop maddələrdən istifadənin qanunvericilikdə cinayət əməli hesab edilməməsidir. Kimsə xəstə, narkotik maddə asılılığı yaranmış ola bilər və məhz bu səbəblə həmin şəxslər onlardan istifadə edirlər. Polisin ələ keçirdiyi şəxslər də çox zaman ”özüm üçün almışam”, ”özüm istifadə edirəm”, deyərək hüquq-mühafizə orqanalarını azdırmağa çalışırlar. Təcrübəli istintaqçılarsa kimin məcburiyyət qarşısında, kimin satış və gəlir əldə etmək məqsədilə narkotik maddə alıb saxladığını anlayır, bilir. Bütün hallarda narkotik madədlərin qanunsuz dövriyyəsi çox genişlənib və hər nə qədər hüquq-mühafizə orqanları narko-tacirlərlə mübarizə aparsalar da, onların fəaliyyəti davam edir və qurbanların sayı da artır.

> “Narkotacirlər sakit dayanmır, yeni-yeni yollar, vasitələr axtarırlar. Bu cinayətkar şəbəkəyə qarşı ictimai dirəniş də vacibdir”

**Polis əməliyyat keçirdi**

Bakı polisi bir neçə gün əvvəl paytaxtın ”Papanin” və ”Kubinka” ərazilərində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı daha bir əməliyyat keçirdi və 16 nəfər saxlanıldı. Daxili İşlər Nazirliyinin məlumatında qeyd olunurdu ki, Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən ötən gecə rayonun ”Papanin”, ”Kubinka” kimi tanınan ərazilərində - Şəmsi Bədəlbəyli, Asəf Zeynallı və Namiq Məlikov küçələrində daha bir əməliyyat keçirilib. Tədbir zamanı qeyd edilən ərazilərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan, satışını həyata keçirən 16 nəfər saxlanılıb. Həmin şəxslərdən ümumilikdə 2 kiloqrama yaxın heroin, tiryək və psixotrop maddə olan metamfetamin aşkar edilib. Saxlanılanlar narkotik vasitələri sosial şəbəkələrdə tanımadıqları xarici ölkə vətəndaşlarından onlayn yolla şəxsi istifadələri ilə yanaşı paytaxt ərazisində satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər. Faktlarla bağlı toplanan materiallar Nəsimi RPİ-nin İstintaq Şöbəsinə göndərilib. Bu şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Saxlanılanların cinayət əlaqələrinin müəyyən edilməsi, həmçinin Nəsimi rayonu ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulmaları istiqamətində polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir.

**Cinayət Məcəlləsinə dəyişiklik edildi**

Əməliyyatdan sonra nə olacaq? Bu şəxslər barədə hansı qərar veriləcək, bir müddət sonra həmin şəxslər yenə köhnə peşələri ilə məşğul olmayacaqlar? Xatırladaq ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə daha ağır cəzaların tətbiqi üçün Cinayət Məcəlləsinə dəyişiklik təklif edilir. Bu məsələ parlamentdə müzakirəyə də çıxarılıb. Dəyişiklik narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi istiqamətlərindən biri kimi təklif edilir. Cinayət Məcəlləsində satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımanı nəzərdə tutan hüquqi normalar müəyyən edilir. Belə əməllər külli və xüsusilə külli miqdarda törədildikdə, onlara görə daha ağır sanksiya nəzərdə tutulur. Eyni zamanda satış məqsədilə qanunsuz olaraq narkotik vasitələrin və ya psixotrop maddələrin, onların prekursorlarını əldə etmə, saxlama, hazırlama, habelə Cinayət Məcəlləsinin 235-ci, 237-ci və 240-cı maddələrində də nəzərdə tutulan əməllər xüsusilə külli miqdarda törədildikdə, onlara görə daha ağır sanksiyanı nəzərdə tutan yeni maddələrin əlavə edilməsi təklif olunur. Qeyd edək ki, CM-yə dəyişiklik Milli Məclis tərəfindən qəbul edilib. Bəs sonra?

> Mübarizə nə qədər güclənirsə, “ağ ölüm”ün əhatə dairəsi daha da genişlənir



**Profilaktik müalicə, maarifləndirmə**

**Konstitusiya Araşdırmaları Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyev ”Şərq”ə açıqlamasında qeyd etdi ki, narkomaniya ilə mübarizə dünyada əsasən 2 istiqamətdə aparılır:**

- Birincisi, narkotacirlərin, narko-kuryerlərin qarşısının alınması, fəaliyyətinin məhdudlaşdırılması məqsədilə cəzaların sərtləşdirilməsidir. Çünki narkomaniya onların vasitəsilə geniş yayılır. İkincisi isə mübarizənin tibbi-sosial tərəfidir. Bura narkomaniyanın qarşısının alınmasında profilaktik tədbirlərin həyata keçirilməsi, geniş maarifləndirmə işlərinin aparılması daxildir. Bu da uyğun bir strategiyadır. Birinci istiqamət məlumdur. Cəzaların sərtləşdirilməsi narkotik maddələrin qanunsuz dövriyyəsi, saxlanması, satışı, yayılmasıyla məşğul olanların qarşısının kəsilməsində faydalı ola bilər. Lakin bu da məlumdur ki, cəzalar heç də həmişə lazımi effekt vermir. Ona görə ikinci istiqamətə də xüsusi diqqət ayrılmalıdır. Narkomaniyaya qarşı geniş profilaktik-müalicə şəbəkəsi yaradılmalıdır. Burada həm məsələnin tibbi tərəfi, həm də sosioloji tərəfi var. Narko-asılılıq yaranmış şəxslər ciddi müalicə almalıdır. Həm də təkcə tibbi deyil, sosioloji müalicə də. Bu da ailələrin müalicə prosesinə qoşulması, ailənin, valideynin nəzarəti, şagirddirsə məktəbin, tələbədirsə ali məktəbin, təhsil müəssisəsinin nəzarəti, şəxsin normal, sağlam həyata qayıtması üçün müxtəlif sosial layihələrin, qabaqlayıcı tədbirlərin görülməsi, şəxsin problemlərinin, onun hansı səbəblərdən narkomaniyaya qurşandığının aşkarlanması kimi bir sıra vacib məqamları əhatə edir. Kompleks tədbirlər görülməsə, təkcə cəzaları sərtləşdirməklə, ya da tibbi müalicə ilə istənilən nəticə əldə edilməz.

*Ə.Nuriyev qeyd etdi ki, narkomaniya ilə mübarizədə transsərhəd əməkdaşlığına ehtiyac var:*

- Məlumdur ki, Azərbaycan ərazisinə narkotik vasitələr Əfqanıstan-İran xətti ilə daxil olur. Bu ölkələrlə Azərbaycanın istər gömrük, istərsə də hüquq-mühafizə orqanları arasında əməkdaşlıq var. Həmçinin transsərhəd əməkdaşlığının əhatəsi də genişlənməlidir. Azərbaycan dövləti öz sərhədlərini bərpa edib artıq. 30 ilə yaxın bir müddətdə nəzarətsiz qalan və erməni separatçılarının narkoticarət və narkotik maddələrin yetişdirilməsi məqsədilə istifadə etdiyi ərazilər işğaldan azad edilib və artıq dövlətimizin nəzarətindədir. Bu mənada transsərhəd əməkdaşlığının genişləndirilməsinə də ehtiyac var. Bilirsiz ki, hazırda müxtəlif narkotik maddələr, sintetik narkotiklər də dövriyyədədir. Mübarizə nə qədər güclənirsə, narkomaniya da əhatə dairəsini genişləndirməyə çalışır. Narkotacirlər sakit dayanmır, yeni-yeni yollar, vasitələr axtarırlar. Bu cinayətkar şəbəkəyə qarşı ictimai dirəniş də vacibdir. Bu işlər yalnız cəzalarla, maarifləndirmə ilə olmur. İctimaiyyətin dəstəyi çox önəmlidir. Hamımız bilməliyik ki, narkomaniya sabah bizim, ailəmizin də qapısını döyə bilər. Ailəmizin, övladlarımızın, bütövlükdə millətin sağlamlığını, genefondunu qorumaq üçün hər birimiz çalışıb ictimai dirəniş formalaşdırmalıyıq. Hüquq-mühafizə orqanları üzərlərinə düşən vəzifəni yerinə yetirir. Lakin bu azdır. Uşaq və yeniyetmələr, gənclərlə işləyən, cəmiyyətin mənəvi-psixoloji sağlamlığının qorunmasına cavabdeh olan qurumlar da çalışmalı və hüquq-mühafizə orqanlarının işinə dəstək verməlidirlər. Bunu milli maraqlarımız tələb edir. Cəmiyyətin sağlamlaşmasına hər kəs bacardığı qədər dəstək olmalıdır.

# Təxribatlara baxmayaraq sülh prosesi pozulmayacaq

## Toğrul İsmayıl: “Sadəcə olaraq proses bir qədər ləngiyəcək və bir müddət sonra qaldığı yerdən davam edəcək”



**”Ermənistan tərəfinin təxribatından sonra Azərbaycan Ordusunun buna cavabı və təhdid törədən hərbi nöqtələrin zərərsiz hala gətirilməsi beynəlxalq qanunların verdiyi hüquqa dayanır”. Bu sözləri ”Şərq”ə Türkiyədə yaşayan tanınmış politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl deyib.**

Politoloq vurğulayıb ki, dünyanın aparıcı dövlətləri də öz təhlükəsizliklərini qorumaq məqsədi ilə bu cür addımlar atıblar: ”Hamı çox gözəl bilir ki, müharibədən sonrakı 2 ildə Azərbaycanın əsas tələbi sülh prosesi, sərhədlərin müəyyənləşməsi, yekun müqavilənin imzalanması və regional əməkdaşlıq siyasəti idi. İndi də rəsmi Bakının mövqeyi bu yöndədir. Beynəlxalq hüquq Azərbaycanın ərazi bütövlüyünü tanısa da, burada əsas problem Ermənistanla sərhədlərin dəqiq müəyyən olunması, delimitasiya və demarkasiyasıdır. 1990-cı illərin əvvəllərindən Azərbaycan ərazilərinin işğalına başlamış Ermənistan öz sərhədlərini qeyri-qanuni irəliyə çəkmişdi. Sərhədlərin müəyyən edilmədiyi üçün hansı ərazinin kimə aid olduğunu söyləmək çətindir. Əslində dünyanın fərqli bölgələrində buna bənzər proseslər var. Məsələn, Qırğızıstan və Tacikistan arasında sərhəd problemi uzun zamandır davam edir və zaman-zaman gərginliklər yaşanır. O cümlədən Qırğızıstanla Özbəkistan arasında da sərhədlə bağlı qarşıdurmalar mövcuddur. Azərbaycan və Ermənistan arasında rəsmi sənədlə təsdiqlənmiş sərhədlər olmadığı üçün heç kim rəsmi Bakını qınaya bilməz. Ermənistan silahlı qüvvələrinin təxribatları çox ciddidir və müharibə səbəbidir. Çünki ermənilərin diversiya qrupları Azərbaycan ərazilərinə, Kəlbəcər və Laçına soxulublar. Azərbaycan tərəfi məhz buna görə Ermənistanın təhdid yaradan hərbi hədəflərini məhv etmək qərarı aldı və strateji hədəfləri ələ keçirdi. Bu da çox doğru addımdır”.

**T.İsmayıl vurğulayıb ki, Ermənistanın bütün təxribatçı cəhdlərinə və kənar qüvvələri prosesə cəlb etmək təşəbbüslərinə baxmayaraq, sülh prosesi pozulmayacaq:** ”Sadəcə olaraq proses bir qədər ləngiyəcək və bir müddət sonra qaldığı yerdən davam edəcək. Ermənilərin cığallığına, Paşinyanın bir-birinə zidd açıqlamalarına artıq öyrəşmişik. Ermənistanda siyasi proseslər kəskinləşib, kənar güclərin hökumətə təzyiqi artıb. Paşinyan da mövcud duruma görə açıqlamalar verir. Məsələn, Şanxay Zirvə görüşünə qatılmamaq, sadəcə, ölkədəki vəziyyətlə əlaqədar deyildi. Bunun səbəblərindən biri də odur ki, baş nazir Qərbə göstərir ki, ”baxın, mən fərqli mövqedən çıxış edirəm və Şərqə deyil, Qərbə inteqrasiyanın tərəfdarıyam”. Yəni Paşinyan çoxtərəfli oynamağa çalışır. Ancaq Azərbaycanın Sammitə qatılması, Rusiya, Çin və digər ölkələrin liderləri ilə görüşü, Türkiyə ilə birlik mesajlarının verilməsi çox uğurlu addımdır, güc göstəricisidir. Rəsmi Bakı bu cür diplomatik mexanizmlərdən daha aktiv şəkildə istifadə etməlidir. Ermənistan zamanla başa düşəcək ki, təxribatlar prosesi sonlandırmayacaq, əksinə, sürətləndirəcək. Ümid edirəm, ermənilər aldıqları bu dərsdən sonra sülh masasına oturmaqda tərəddüd etməyəcəklər”.

**İsmayıl Qocayev**



**”Ermənistanla müharibə şəraitindəyik. Döyüş meydanında savaşla yanaşı, informasiya sahəsində, diplomatik arenada da mübarizəmiz aktiv şəkildə davam edir”. Bunu ”Şərq”ə Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidov deyib.**

*Ekspert bildirib ki, Azərbaycan rəhbərliyi, diplomatik korpuslarımız uğurlu fəaliyyət göstərir:* ”Biz də vətəndaş cəmiyyətinin üzvləri olaraq, media nümayəndələri kimi xarici televiziyalarda, xüsusən ”Əl-Cəzirə”, ”Al Arabiya”, ”Sky News”, ”TRT world” və digər telekanallarla yaxından əməkdaşlıq edirik. Bu, çox önəmlidir. Dünyada güclü olmaqla bərabər, haqlı olmaq da vacibdir. Azərbaycan da güclü və haqlıdır, sadəcə bunu dünya ictimaiyyətinə də çatdırmaq lazımdır. Dünyada ikili standartlar hökm sürür. Təəssüflər olsun ki, bəzən işğalçı ilə işğala məruz qalan tərəflər arasında bərabərlik işarəsi qoyulur. Hətta işğalçı tərəf açıq-aşkar müdafiə olunur. Belə məqamda dünya mediasında Azərbaycan həqiqətlərinin işıqlandırılması çox-çox önəmlidir. Bir neçə ildir bu sahədə kifayət qədər təcrübəmiz formalaşıb”.

# "Son üç gündə 25 xarici televiziyaya müsahibə vermişəm"

## Əhməd Şahidov: “Bu işdə bizə dəstək göstərilsə, fəaliyyətimiz daha çox nəticə verər”

**Ə.Şahidov qeyd edib ki, 44 günlük müharibə zamanı dünya mediası ilə yaxın əməkdaşlığı nəticəsində bu sahədə əlaqələri, bilik və təcrübəsi daha da genişlənib:** ”Son üç gündə təqribən 25 xarici televiziyaya müsahibələr vermişəm. Xüsusən, qardaş Türkiyə televiziyaları ilə sıx əməkdaşlıq içindəyik. Əlbəttə, bu fəaliyyət sadəcə 1-2 nəfərin işi deyil. Bu sahədə çalışanların sayı artmalıdır. Yaxşı olardı ki, müvafiq dövlət qurumlarımız bu sahədə bizə dəstək olsunlar. Əfsuslar olsun ki, dünya mediası ilə bu qədər sıx əməkdaşlığımız, xarici kanallarda çıxışlarımız dövlət qurumlarının, rəsmilərin diqqətini cəlb etmir, heç bir qayğı görmürük. Bunların hamısını şəxsi təşəbbüsümüz, fərdi imkanlarımız sayəsində edirik. Təbii ki, ruhdan düşmürük. Vətənə, dövlətə, millətə qulluq etmək hamımızın müqəddəs borcudur. Ancaq bu işdə bizə dəstək göstərilsə, fəaliyyətimiz daha çox nəticə verər”.

**İsmayıl Qocayev**

# Rusiya-Qərb qarşıdurması güclənir

## Cənubi Qafqazın üzərində “qara bulud” topası yaranıb

**Sentyabrın 15-də Səmərqənd şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. Görüşdə R.T.Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Prezidentimizə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verib.**

O, Azərbaycanın və Türkiyənin daim bir-birinin yanında olduqları qeyd edib. Dünən isə dövlət başçımız Səmərqənddə Rusiya Prezidenti Vladimir Putin və R.T.Ərdoğan ilə görüşüb.



Görüşü şərh edən analitik Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Azərbaycan sərhəddəki sonuncu toqquşmalardan sonra bir sıra ərazilərə və strateji yüksəkliklərə yiyələnib: ”Bununla da region üzərində Rusiya-Qərb rəqabətindən doğan ”qara bulud” topası yaranıb. İndi Rusiya və ABŞ rəqabəti Cənubi Qafqazda yeni fazaya daxil olub. Əslində hazırda hər bir tərəf - istər Qərb, istər Rusiya, istərsə də Türkiyə və digərləri Azərbaycan-Ermənistan münasibətlərinin sülh müqaviləsi ilə yekunlaşmasının tərəfdarıdırlar.

Sadəcə, böyük güclər maksimum dərəcədə sülh mətnində öz maraqlarını təmin etmək uğrunda yarışa çıxıblar. Bu da Cənubi Qafqaz məkanını daha təhlükəli vəziyyətə gətirib çıxarıb.

Hesab edirəm ki, Azərbaycan Prezidentinin Səmərqənddə Türkiyə və Rusiya dövlət başçıları ilə apardığı danışıqlar bizim müəyyən təhlükəsizliyimizin formalaşdırılması üçündür. Bundan sonra Azərbaycan Qərblə də təmaslarını genişləndirəcək.

Qərbdən Azərbaycana hər nə qədər təhlükə plazması axsa da, bu, ümumilikdə Azərbaycanın onunla münasibətlərindəki baza prinsiplərinə sarsıdıcı zərbə vurmur. Çünki Azərbaycan Qərblə də münasibətlərin inkişafında maraqlıdır. Bu maraqlarını da enerji layihələri ilə daha da möhkəmləndirir”.

**Günəş Mərd**

# "Heç nə saxtalaşdırılmayıb"

## Şərif Quliyev: ”İlkinin ayaqqabısında Nərminə aid 2-ci qrup qan aşkarlanıb”




**”Məhkəmədə heç kim danışmır. Ancaq müzakirələr gedir. Sənədlərin tədqiqi işləri aparılır”.**

*Bu barədə 10 yaşlı Nərmin Quliyevanın atası Şərif Quliyev ”Şərq”ə açıqlamasında bildirib. O qeyd edib ki, məhkəmə prosesi 3 saat davam etdi:* ”İlkinin ayaqqabısının dabanında Nərminə aid 2-ci qrup qan aşkar olundu. Məhkəməyə gətirilən jurnalistlər onların özününkülərdir. Dediklərimi yazmadıqları üçün onlara danışmayanda məni mətbuat nümayəndələrindən qaçırmışam kimi qələmə verirlər.

Uşaq şalvarı və ayaqqabısından təqsirləndirilən şəxsin gödəkcəsinin liflərinin tapılması doğrudur. Bunu hakim özü oxuyub. Heç nə saxtalaşdırılmayıb.

İ.Süleymanovun yun parçadan olan isti alt paltarında Nərmin Quliyevaya aid jaketin lifinin tapılması barədə isə hakim hələ qərar çıxarmayıb. Bu barədə ekspertizanın rəyində belə bir iddia yoxdur”.

**Sücayət Mehti**



# Ermənistan vətəndaş qarşıdurmasının astanasındadır

## Sülh prosesini pozmaq İrəvan hakimiyyətinə baha başa gələcək

**”Sentyabr ayının 12-13-də gecə saatlarından başlayaraq Ermənistan tərəfindən törədilən genişmiqyaslı təxribatlar onların revanşist siyasətdən əl çəkmədiklərinin göstəricisidir. Ermənilər sülh müqaviləsini imzalamaqdan boyun qaçıraraq, süni əngəllər törədirlər”.**

*Bu fikirləri ”Şərq”ə açıqlamasında millət vəkili Cavid Osmanov söyləyib.*

Parlamentarinin sözlərinə görə, Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Ermənistan təxribatlara əl atır: ”Ayıq-sayıq qüvvətli Azərbaycan Silahlı Qüvvələri adekvat cavab tədbirləri görüb. Ermənistan Vətən müharibəsinin ardınca Rusiya, ABŞ, Avropa ölkələri ilə silah tədarükü edirdi. Azərbaycanla sərhəddə hərbi bazalar qururdular. Ölkəmizin irəli sürdüyü bütün sülh təklifləri Ermənistan tərəfindən sabotaj edilirdi.

Ermənilərin sentyabr ayının 12-13-də həyata keçirdiyi genişmiqyaslı təxribat 2020-ci ilin 12 iyul tarixində Tovuz istiqamətində Ermənistanın başlatdığı təxribatla eynilik təşkil edir”.

C.Osmanov diqqətə çatdırıb ki, Azərbaycan Ordusu cəmi 7 saat baş tutan unikal cavab əməliyyatı gerçəkləşdirməklə Ermənistanın uzun müddətdir, qurduğu planları alt-üst etdi: ”Ermənilər dezinformasiya yayaraq da təxribat törədirdilər. Heç bir fakta söykənməyən ”feyk” xəbərlər tirajlayırdılar. Bir müddət sonra dünya bunun təxribat olduğunu gördü. Ermənistan müxtəlif platformalarda Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna zərbə vurmaq istəyir, amma nail ola bilmirlər. Ermənistan işğalçılıq siyasəti yürüdür. Ermənistanın yenə başına dəyən ”Dəmir yumruq” bütün sahələrdə böhranı dərinləşdirdi. İrəvanda mitinqlər başlayıb. Ölkədə xaotik vəziyyət yaranıb, vətəndaş qarşıdurması astanasındadır.

Günah erməni siyasi rəhbərliyinin üzərinə düşür. Onların revanşist siyasəti nəticəsində bu ölkə acınacaqlı durumdadır. Ermənistanın respublikamıza və hərbi bölmələrimizə qarşı ardıcıl həyata keçirdiyi təxribatların hansı acı nəticələrə gətirib çıxaracağı bir daha aydın göründü.

”Dəmir yumruğ”un yerində olduğu Ermənistana bir daha sübut olundu. Növbəti dəfə təxribat törədilərsə, qarşısı daha sərt və qətiyyətlə alınacaq. Ermənistanın yeganə çıxış yolu Azərbaycanla münasibətləri normallaşdırmaqdan keçir. Adekvat addım atmasalar, acı nəticələrə gətirib çıxaracaq”.

*Qeyd edək ki, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyır.*

**Aygün Tahir**

# Məktəb, xəstəxana, məscid inşa olunur

## “Şuşada 23 binalı yaşayış massivi gələn ilin sonu təhvil veriləcək”

**Dünən Şuşada Qarabağ regionunun bərpası və inkişafına həsr olunmuş Şuşa Türk Biznes Forumu keçirilib. Tədbirdə Azərbaycanla yanaşı, Türk Dövlətləri Təşkilatının 4 daimi üzvü (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan) və müşahidəçi üzv Macarıstanın dövlət qurumlarının, eləcə də müxtəlif təşkilatların və diplomatik korpusun nümayəndələri, iş adamları iştirak ediblər. Forumun məqsədi türk dövlətləri arasında iqtisadi, biznes və investisiya əlaqələrinin daha da dərinləşməsi, sahibkarlar arasında dialoqun təşviqi, Qarabağ regionunun iqtisadi və sərmayə potensialının xarici iş adamlarına təqdim olunmasıdır.**



Azərbaycan iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxış edərək, türk dövlətləri təşkilatına üzv və müşahidəci ölkələrlə Azərbaycanın ticarət dövriyyəsinin ötən il 5 milyard ABŞ dollarına çatdığını deyib: ”Təşkilata üzv ölkələrin Azərbaycanın xarici ticarətində payı təxminən 15 faiz təşkil edir. Forum çərçivəsində ikitərəfli görüşlər, ”Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda investisiya imkanları” mövzusunda xüsusi sessiya, bir sıra sənədlərin imzalanması gözlənilir. Qlobal müstəvidə geosiyasi gərginliyin artması fonunda dünya iqtisadiyyatında mənfi proseslərin güclənməsi, habelə dünyanı cənginə alan ”Covid-19” pandemiyasinin mənfi təsirlərinin tam bitməməsi şəraitində ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində 2022-ci ilin yanvar-iyul aylarında inkişaf templəri davam etdirilib, UDM-nin artım tempi 5,2 faiz təşkil edib, qeyri-neft sektorunda isə əlavə dəyər 9,9 faiz bəndi artıb”.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov da çıxış edərək xarici tərəfdaşlarla birgə Qarabağda biznes layihələrinin icrası üçün digər təşkilati-hüquqi modeli kimi KOB klasterlərinin yaradılmasını qeyd edib: ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində KOB klaster şirkəti və KOB klasterin iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulub. Qarabağ bölgəsində iqtisadiyyatın ənənəvi sahələri və digər potensial sektorlar üzrə klasterlərin formalaşdırılması daha intensiv və dayanıqlı iqtisadi inkişafa və məşğulluq imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsinə, eləcə də yüksək əlavə dəyərin yaradılmasına təkan vermiş olacaq”.

Forumda Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyev türkdilli ölkələr arasında gömrük prosedurlarının sadələşdirilməsinin imzalanmasına dair razılıq əldə olunduğunu bildirib. Onun sözlərinə görə, bu saziş noyabrın 11-də Səmərqənddə keçiriləcək sammit ərəfəsində imzalanacaq: ”Bu sənəd şirkətlərimizə gömrük prosedurlarını asanlaşdırmağa imkan verəcək ki, bu da onlara maliyyə yardımı göstərməkdən heç də az əhəmiyyət kəsb etmir. Türkdilli ölkələr arasında güzəştli ticarət üzrə saziş üzərində də iş gedir ki, bu da xüsusi əhəmiyyət kəsb edir, çünki bu, həm də sahibkarlar üçün vəsaitə qənaət edəcək”.

İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri Elşad Nuriyev isə çıxışında qeyd edib ki, Azərbaycana gələn investisiyalar, xüsusilə də işğaldan azad olunan ərazilərlə bağlı layihələrə məhdudiyyət qoyulmur. Əksinə, əlavə təşviq mexanizmləri tətbiq edilir.

Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov deyib ki, Şuşada 23 binalı yaşayış massivi gələn ilin sonu təhvil veriləcək. Onun sözlərinə görə, ümumilikdə bu günə Şuşada 19 çoxmənzilli qəzalı yaşayış binası sökülüb: ”Buna paralel olaraq şəhərdə sosial infrastruktur da - yeni məktəb binası, xəstəxana, yeni məscid kompleksi, mehmanxana, konfrans mərkəzi tikilməkdədir. Şuşada 23 çoxmənzilli binaların inşasına başlanılıb. Onların ümumi sahəsi 60 min kvadratmetr olacaq və 450 mənzildən ibarət olacaq. Bu yaşayış massivinin təhvil verilməsi gələn ilin sonuna gözlənilir. Beləliklə işğal nəticəsində öz doğma yurdundan məcburi köçkün düşənlər öz doğma yurdlarına qayıtmağa başlayacaqlar”.

Qeyd edək ki, Forum çərçivəsində ikitərəfli görüşlər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda investisiya imkanları” mövzusunda xüsusi sessiya keçirilib, bir sıra sənədlər imzalanıb.

**İsmayıl**

# Diasporamız əvvəlcədən hazırlıqlı olmalıdır

## Erməni yalanlarına qarşı hər bir azərbaycanlı fəallıq göstərməlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**



**Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribatlarla əlaqədar dünya ictimaiyyətini məlumatlandırma prosesində diasporamızın da üzərinə böyük məsuliyyət və vəzifələr düşür. 44 günlük müharibədə olduğu kimi sentyabrın 12-dən, gecə saatlarından başlamış erməni təxribatı barədə də dünya azərbaycanlıları yaşadıqları ölkələrin hakim qurumlarına və beynəlxalq təşkilatlara çağırış edərək, onları erməni təxribatlarına biganə qalmamağa, Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünü pisləməyə səsləyirlər.**

Dövlət sərhədində baş verən hadisələrin beynəlxalq müstəviyə çatdırılmasında diaspor nümayəndələrinin rolu danılmazdır. Soydaşlarımız erməni təxribatından dərhal sonra beynəlxalq qurumlara, media orqanlarına Ermənistanın təxribatları barədə dolğun məlumatlar çatdırırlar. İtaliyada yaşayan və fəaliyyət göstərən Azərbaycan icması Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribatla əlaqədar yerli və beynəlxalq ictimaiyyətə müraciət edib. Azərbaycan-İtaliya Birliyinin sədri Fərid Abbasovun imzası ilə yayılan bəyanatda Ermənistanın hərbi təxribatı barədə ətraflı məlumat verilib, bu təcavüzün səbəblərinə diqqət cəlb edilib. Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü nəzərə çatdırılıb. Ermənistanın təcavüzkar siyasətinin beynəlxalq hüquq normalarına, bölgədə aparılan normallaşma və sülh prosesinə tamamilə zidd olduğu bildirilib. Azərbaycanın işğaldan azad edilmiş bu ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri apardığı bir zamanda məhz Ermənistanın hərbi təxribata yol verməsi bu prosesə hər vəchlə mane olmasının növbəti bariz nümunəsi kimi qiymətləndirilib: "Biz, İtaliyada yaşayan Azərbaycan icması, dünya birliyindən bu kimi halların bir daha baş verməməsi üçün beynəlxalq hüquq müstəvisində əməli addımların atılmasını, eyni zamanda Ermənistanın revanşizm ideyalarına son qoyulması və sülhə dəvət edilməsi istiqamətində səylərin artırılmasını tələb edirik". Niderlandda fəaliyyət göstərən Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyəti də Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribata kəskin etirazını bildirib. Cəmiyyətin sədri Frəngiz Bağırovanın imzası ilə yerli və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatda Ermənistanın beynəlxalq hüquq normalarına, Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesinə zidd olan hərbi cinayəti barədə ətraflı məlumat verilib. Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədində törətdiyi təxribata Macarıstanda yaşayan soydaşlarımız da etiraz edib. Macarıstanın Azərbaycan icması Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribatla əlaqədar yerli və beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. Budapeşt şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin yaydığı bəyanatda Ermənistanın növbəti dəfə törətdiyi təcavüz barədə ətraflı məlumat verilib. Beynəlxalq hüquq normalarına, Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesinə zidd olan hərbi təxribatın səbəblərinə diqqət cəlb edilib. Təcavüzkar Ermənistanın hərbi təxribatına Almaniyanın Hannover şəhərində yaşayan Azərbaycan icması sərt etiraz edib. Alman-Azərbaycan Dostluq Assosiasiyasının yerli və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatında ünvanlanan məktubda hərbi təxribat nəticəsində baş verən itkilər barədə ətraflı məlumat verilib. Ermənistanın beynəlxalq hüquq normaları ilə bir araya sığmayan bu təcavüzkar hərəkətinin səbəblərinə diqqət cəlb edilib. ABŞ-ın Florida ştatında yaşayan və fəaliyyət göstərən azərbaycanlı gənclər Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi genişmiqyaslı təxribata kəskin etiraz bildiriblər. Azərbaycan-Amerika Gənclər Assosiasiyasının təsisçisi və rəhbəri Nabat Eminovanın imzası ilə yerli və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatda Ermənistanın növbəti dəfə törətdiyi hərbi cinayət barədə ətraflı məlumat verilib və bu qanlı faciənin səbəblərinə diqqət cəlb olunub. Bəyanatda sərhəddəki təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü vurğulanıb, rəsmi İrəvanın beynəlxalq hüquq normalarına, Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesinə növbəti zərbə vurmasına görə narahatlıq ifadə edilib. Fransanın Nant şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Assosiasiyası Ermənistanın təcavüzkar siyasətinin beynəlxalq hüquq normalarına, bölgədə aparılan normallaşma və sülh prosesinə tamamilə zidd olduğunu bəyan edib. Assosiasiyanın yerli və beynəlxalq ictimaiyyətə ünvanladığı bəyanatda Ermənistanın Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesi ilə bir araya sığmayan növbəti təcavüzü barədə məlumatlar yer alıb, bu hərbi cinayətin səbəblərinə diqqət cəlb edilib. İsraildə yaşayan Azərbaycan icması da Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycan sərhədləri boyu törətdiyi genişmiqyaslı təxribata sərt etirazını bildirib. "İsraildə Azərbaycan Evi" diaspor təşkilatının rəhbəri Nexamiya Şirin Mixaelinin imzası ilə yayılan bəyanatda vurğulanıb ki, Avropa Birliyinin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarının həlledici mərhələsində belə təxribatın baş verməsi yolverilməzdir. Həmçinin nəzərə çatdırılıb ki, "İsraildə Azərbaycan Evi" diasor təşkilatının üzvləri rəsmi İrəvanın sülh danışıqlarına növbəti dəfə zərbə vurmasından dərin narahatlıq keçirir: "Doğma Vətənimizin işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığı bir zamanda Ermənistanın təcavüzə yol verməsi bu prosesə mane olmasının növbəti bariz nümunəsidir. Dünya birliyindən bu cür halların təkrarlanmaması naminə beynəlxalq müstəvidə əməli addımlar atılmasını, Ermənistanın revanşizm ideyalarına soy qoyulmasını və sülhə sövq edilməsini tələb edirik". Digər ölkələrdə yaşayan soydaşlarımız da kampaniyaya qoşularaq, erməni təxribatlarının ifşa olunmasında böyük işlərə imza atırlar.

**Siyasi şərhçi, tanınmış jurnalist Azər Həsrət sözlərinə atalar sözləri ilə başlayıb və bildirib ki, kim, harada nə bacarırsa, etməlidir:** "Bir məsəl var - "dama-dama göl olar". Belə təşəbbüslər ümumi işimizə böyük töhfə deməkdir.

### *Azər Həsrət: "Hətta bizə rəğbəti ilə seçilən ölkələrdə belə Azərbaycanın mövqeyinə zidd paylaşımlara rast gəlirik"*

Diplomatik korpusun nümayəndələri və diaspora təşkilatları ilə yanaşı, hər bir vətəndaşımız bu işdə daha çox iş görməlidir. Əgər söhbət ABŞ və Avropa ölkələrindən gedirsə, orada fəaliyyət göstərən diaspora təşkilatlarımızın əlinin altında əvvəlcədən bu cür hallarda müraciət edə biləcəkləri siyasi şəxslərin siyahısı, onların əlaqə vasitələri olmalıdır. Məsələn, ABŞ-dakı diasporamız dərhal ermənipərəst konqresmenlərə, senatorlara, rəsmi şəxslərə ətraflı məlumatlar göndərməliydilər. Deyə bilmərəm, bunu nə dərəcədə ediblər. O cümlədən Avropa ölkələri, ayrı-ayrı ölkələrin parlamentləri, ən əsası isə media orqanları ən operativ şəkildə məlumatlandırılmalıdır. Əlbəttə, bunlar bir günlük işlər deyil. Əvvəlcədən hazırlıqlı olmalıyıq. Təəssüflə qeyd edirik ki, dünyanın hər tərəfində ermənilər mediada oturuşublar. Amma elə yerlər, elə media qurumları var ki, orada ümumiyyətlə azərbaycanlı yoxdur. Ümumiyyətlə, ictimai rəydə gözə dəymirlər. Bu çatışmazlığı aradan qaldırmaq üçün diaspora təşkilatlarımız fəaliyyətlərini gücləndirməli, əlavə işlər görməlidirlər. Bəlkə illərlə zaman lazım olacaq, amma əvvəl-axır buna nail olmalıyıq. Gördüyümüz işlər yetərli deyil".

**A.Həsrət bildirib ki, hətta bizə rəğbəti ilə seçilən ölkələrdə belə Azərbaycanın mövqeyinə zidd paylaşımlara rast gəlirik:** "Son günlər Ukrayna ilə bağlı müzakirələr gedir, ukraynalılar bizi dəstəkləmir və s. Bunun səbəbi odur ki, biz Ukraynada həm səfirlik, həm də diaspora olaraq təbliğat işini yetərincə qura bilməmişik. Ermənilər media üzərindən anti-Azərbaycan təbliğatı qurur. Dünən özbək dostlarımızın paylaşımlarında gördüm ki, media resurslarında ermənilərin mövqeyi dərc olunur. Hamı bilir ki, bu məsələdə əlimdən gələni edirəm, sosial medianı izləyirəm, ölkəmiz əleyhinə açıqlamalara cavablar verirəm və s. Amma Azər Həsrət Bakıda oturub, bunları idarə edə bilməz. Niyə Özbəkistanda anti-Azərbaycan mövqe paylaşılır? Çünki oradakı səfirliyimiz yatır. Belə anlaşılır ki, Özbəkistandakı səfirliyimiz media ilə, ictimaiyyətlə işləmir. Əgər işləsəydilər, media informasiya almaq üçün ilkin mənbə kimi onlara müraciət edərdi, ermənilərin saxta xəbərlərini tirajlamazdı. Ona görə də həm diasporamız, həm də diplomatik korpusumuz, ictimai fəallarımız bacardıqlarını etməlidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Direktorun üçüncü arvadı da olub

## Yardımlıda orta əsr adətləri hələ yaşayır

**İki bacını özünə kəbinli həyat yoldaşı edən Yardımlı rayon Arvana kənd məktəbinin direktoru Kamran İsayev haqqında yeni məlumat var. "Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, məktəb direktorunun 3-cü həyat yoldaşının da olması haqda məlumat əldə edilib.**

M.Zeynalova məktəb direktorunun onu məhkəmə ilə hədələməsinə gəlincə, "məni məhkəmə ilə qorxudur?! Qoy versin", dedi. M.Zeynalova "kəbinli ərindən" qaçıb paytaxta gəlmiş qadının hazırda polisin himayəsində olduğunu və ona kimsənin zərər verə bilməyəcəyini söylədi. Baş vermiş hadisənin araşdırıldığını deyən M.Zeynalova bu səbəblə əlavə məlumat verə bilməyəcəyini qeyd etdi, qısaca bunu dedi ki, bacısının həyat yoldaşı ilə kəbininin kəsilməsindən qadının xəbəri olmayıb, kəbin kağızını ona göstərib, "bu, sənin ərindir", deyiblər. "Ər" onunla zorla əlaqədə olmaq istəyib, qadının boğazında boğulma əlamətləri var.

**Xatırladaq ki, M.Zeynalova Yardımlı rayonundan bir qadının uşağı ilə ayaqyalın qaçıb Bakıya gəldiyi barədə sosial şəbəkədə məlumat paylaşıb: "Səbəb, sap-sağlam olan bacısının mövcud əri onu evlənməyə məcbur edib.** Qızın ailəsi də bu izdivacda həmin "ərə" yardım üçün iştirak edib. Demək, gedib qızın xəbəri olmadan kəbin kəsdirib və deyib ki, sən mənim kəbinli arvadımsan. "Ər" qızı boğaraq onunla zorla ərdə olmasını tələb edib. Maraqlı bilirsiz nədir? Orta əsr qaydalarını icra edən gələcək "ər" Arvana kənd məktəbinin direktorudur. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi mümkünsə bu direktorla məşğul olsun. Əgər bu belədirsə həmin məktəbdə orta əsr adətlərinin mövcud olması qaçılmazdır.



*İki bacını özünə kəbinli arvad edən məktəb direktoru hədələyir*

Keçək ikinci məsələyə. Yardımlı polis əməkdaşı *(adını bilmirəm)* mənə zəng vurdu və soruşdu: "Sizdə Yardımlı vətəndaşı varmı?. Bildirdik ki, var. Dedi, həmin "ər" gəlib qızı götürmək istəyir. Xəbərdarlıq etdim ki, yeri qətiyyən bildirməyin. Üstündən 3 saat keçməmiş bizim bu polis əməkdaşı bütün nəsli yanına alıb gəlib qapıya. Əməkdaş polisə yeri bildirməmək kimi məsuliyyətlə bağlı məlumatlandırıldığını bildirsə də, cavabı "adam axtarışa verilib, gətirməliydim" oldu. "Qardaş" polisin yanında hədə-qorxu gəlib əməkdaşmıza, amma polis hədənin qarşısını almayıb.

Bu arada Binəqədi Rayon Polis İdarəsinin Xidmət üzrə müavini, polis polkovnik-leytenantı Axundov Vüsal Həsən oğluna minnətdarlıq edirik ki, qadına dərhal ilkin yardım göstərib. Qida, ayaqqabı həm uşağa, həm qadına alıb və sığınacağa istiqamətləndirib. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, xahiş edirik, orta əsr qaydalarını dəstəkləyən polislə bağlı ölçü götürün. Yeri gəlmişkən, qadının və uşağının sənədləri girov saxlanılıb və həmin sənədlər mümkünsə alınıb verilsin şəxsin özünə. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hərəkətə keçməlidir, belə başa düşdüm ki, Yardımlı rayonunda davamlı monitorinqə ehtiyac var. Əgər belə orta əsr qaydaları tətbiq edilirsə...

*Sözügedən məktəbin direktoru K.İsayev isə M.Zeynalovanı "haqqında şər-böhtan xarakterli məlumat yaydığı üçün" məhkəməyə verdiyini bildirib. Bu haqda K.İsayev "AzVision.az"a danışıb. 13 il Yardımlı rayon Arvana kəndində direktor işləyən Kamran İsayev yayılan məlumatın yalan olduğunu qeyd edib:*

- Haqqımda deyilənlər şər, böhtandır. 3 qız köçürmüşəm, bir qızım evdədir, oğlum isə Kəlbəcərdə qulluq edir. Mən niyə belə addıma əl atım? Baldızımı kimsə öyrədib və məni şərləyirlər.

**- "Şər, böhtan" deyirsiniz, bəs belə məlumatı niyə sizin haqqınızda yazsınlar?**

- Bunu mənə qarşı qərəzli şəkildə edirlər. Kənd yeridir, gözü götürməyən o qədər adam var. Kimsə indi belə edib.

**- Baldızınız ailəlidir?**

- Xeyr, yoldaşından 3 il əvvəl ayrılıb, atasının evinə gəlib. Qayınatamgil qonşu kənddə qalır. Bizim onlara aidiyyətimiz yoxdur. Baldızımın iki övladı var. Biri keçmiş ərindədir, biri isə özündədir. Uşağını da götürüb Bakıya gedib.

**- Həyat yoldaşınız, onun valideynləri bu hadisəyə nə deyir?**

- Qayınatam bizi biabır etdiyinə görə ona qarğış edir. Kiminsə öyrətməsi ilə bizi şərləyir. Həyat yoldaşımdan da polis izahat alıb və bacısının bu hərəkətini pisləyib. Mən hər gün işə gedib-gəlirəm. Günün ikinci yarısı təsərrüfat işləri ilə məşğulam, sonra da evdə oluram. Məsələ araşdırılır.

**- Bu söhbətlərə necə son qoymaq istəyirsiniz?**

- Sosial şəbəkələrdə mənim haqqımda belə böhtan xarakterli məlumat yayanları, Mehriban Zeynalovanı məhkəməyə vermişəm. Həmçinin Təhsil Nazirliyinə də məlumat vermişəm. Yəqin ki, məhkəmədə hüquqi qiymət veriləcək və məsələyə birdəfəlik son qoyulacaq.

*M.Zeynalova isə "Şərq"ə açıqlamasında hazırda hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparıldığını, qadının da polis nəzarətində olduğunu söylədi.*

**Məlahət Rzayeva**

# Xırdalana gedən vətəndaşların işi daha da çətinləşdi

## Hərəkət sisteminə edilmiş dəyişiklik uğursuz olub



**Bir neçə gün əvvəl Bakı-Sumqayıt yolundan Xırdalan şəhərinin şimal-şərq tərəfinə girişi təmin edən məşhur "VAZ dairəsi"ndə hərəkət sxeminə dəyişiklik edilib.**

Dəyişiklikdən sonra oradakı körpünün üstünə qalxaraq sola - Xırdalana dönmək ləğv olunub. Belə ki, indi Xırdalana oradan getmək istəyənlər körpüyə çatmamış sağa çıxmalı, Saray qəsəbəsinə doğru xeyli məsafə getməli, geriyə dönməli və Xırdalana doğru qayıtmalıdırlar. Həmin istiqamətdən Xırdalana daxil olmaq, Bakı Mühəndislik Universitetinə getmək istəyənlərin, o cümlədən həmin istiqamətdə hərəkət edən marşrut avtobuslarının yürüş məsafəsi 4-6 km artıb.

**Bununla bağlı fikirlərini bölüşən nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov isə dəyişikliyi uğursuz hesab etdiyini deyib:** " Lakin "VAZ dairəsi"ndə hərəkət sxemində edilmiş dəyişikliklə bağlı rəsmi qurumların (AAY-DA və DYP-nin) əməkdaşları ilə fikir mübadiləsi apardıq. Məlumat verdilər ki, indi tətbiq edilən dəyişiklik hələ tam deyil, yekunlaşmayıb. Hərəkət sxeminin səmərəli edilməsi istiqamətində yaxın günlərdə yeniliklər olacaq.

Ümumiyyətlə, bildiyiniz kimi, həmin körpü Bakı-Sumqayıt yolunun üstündən keçən dairəvi yolun bir hissəsi olacaq. Həmin dairəvi yol Abşeron yarımadasının şimal tərəfindəki qəsəbə və kəndlərdən gəlir, Novxanı, Saray və Xırdalandan keçməklə Bakı-Şamaxı yoluna birləşməlidir. Hələlik işlər yarımçıqdır, körpü böyüdüləcək və Bakı tərəfdən Xırdalana gedərkən körpünün altından keçib sağa dönərək körpünün üstünə qalxmaq üçün keçid yol olacaq. Lakin bu işlərin icrası hələlik dayandırılıb.

Yaxın günlərdə isə ləğv edilmiş dairədən Saray istiqamətində daha yaxın məsafədən (bir neçə yüz metr) geriyə dönüb Xırdalana getmək üçün geriyə dönmə yerinin yaradılması müzakirə olunur. Ümid edirəm ki, həmin ideya həyata keçsə, yeni sxemin yaratdığı çətinlik, yəni təxminən 3 km-dən sonra geriyə dönmə problemi həll olunacaq, Xırdalan istiqamətinə dönmə daha rahat olacaq, dairədə pik saatlarda müşahidə edilən sıxlıq azalacaq.

**Şəymən**

# Bəlkə yenə muzdlu hakerlərin müdaxiləsi olub

## Onlayn mənzil satışını dövlətin elektron platformasına inteqrə etmək düzgün qərar deyildi



**"MİDA tərəfindən keçirilən "Güzəştli mənzillər"in satışı ilə bağlı uzun müddətdir narazılıqlar davam edir. Xatırladım ki, mənzillərin seçimi prosesinə kənar şəxslərin qanunsuz müdaxiləsi halı ilə bağlı Güzəştli mənzil sistemi vasitəsilə 30 mart 2022-ci ildə keçirilmiş mənzil seçimi mərhələsinin nəticələri də ləğv edildi. Sonuncu satışın təxirə salınması da çox təəssüfləndirici bir haldır".**

**Bu sözləri Mənzil İnşaatı Dövlət Agentliyinin mənzillərin satışa çıxarılması zamanı sistemin çökməsi və insanların elektron hökumət portalına daxil ola bilməməsinə aydınlıq gətirən internet-media eksperti Səbuhi Abbasov deyib.**

S.Abbasovun sözlərinə görə, "ASAN login" sisteminin çökməsini hər birimiz müşahidə elədik. Amma burada problem təkcə bu sistemin yüklənməsi ilə bitmir. Əsas problem e GOV.az-ın çökməsidir: "Bir neçə mühüm dövlət qurumları Elektron Hökumətə inteqrasiya olunub. Bu o deməkdir ki, həmin vaxt sadəcə MİDA tərəfindən həyata keçirilən satış təxirə salınmadı, eyni zamanda bir neçə dövlət qurumunun işi iflic vəziyyətə düşüb. Bir çox ölkələrdə bu cür proseslərin dəqiq və ehtimal olunan tərəfləri hesablanır. Ehtimal olunan tərəf gün ərzində şərti olaraq 50 istifadəçinin daxil olduğu e Gov.az-a onlayn mənzil satışı zamanı ən azı əlavə olaraq da 50 min istifadəçinin girişini nəzərə almaq lazımdır. Bunu ən azı sistemin özünün təhlükəsizliyi üçün etmək lazımdır. e Gov .az və "ASAN login" sistemlərinin tətbiqi milyonlarla dollara başa gəlib və kifayət qədər mühüm dövlət əhəmiyyətli sənədlər o sistemin yaddaşına köçürülüb".

Ekspert deyib ki, mənzil satışının təxirə düşməsinin məhz kiber- hücumlarla əlaqələndirilməsi çox xoşagəlməz və təəssüfləndirici bir haldır. Milyonlar bahasına tətbiq edilən sistemlərə kiber hücumlar bu qədər asan olmamalıdır: "Sistem bütün müdaxilələrdən müdafiə olunmalıdır. Kimlərinsə qeyri-peşəkarlığı və ya məsuliyyətsizliyi səbəbindən bu dəfə də yüzlərlə ailə mənzil almaq şanslarını itirdilər. Sözsüz ki, yaxın günlərdə satış yenidən elan olunacaq və DTX-nin nəzarəti altında keçirilən onlayn satışın obyektivliyi təmin ediləcək. Amma satış zamanı yaranan problem göstərdi ki, kibercinayətkarlar istənilən vaxt bir neçə dövlət qurumunun inteqrə olunduğu e GOV.aza hücum edib, sistemin işini iflic edir və və bütün məlumatları əldə edir. Bu, kifayət qədər ciddi problemdir. Dövlətin ayırdığı milyonlarla vəsait sırf kiberhücumların qarşısını almağa və unikal sistem qurulmasına görə hesablanıb. Hər dəfə eyni problemin yaranması göstərir ki, bu sahədə işləyən insanlar qeyri-peşəkardır. Ümumiyyətlə, araşdırmaq lazımdır ki, bəlkə yenə də muzdlu hakerlərin müdaxiləsi olub".

**S.Abbasovun sözlərinə görə, onlayn mənzil satışını dövlətin elektron platformasına inteqrə etmək düzgün qərar deyildi. Bunun üçün yüksək təhlükəsizliyə malik ayrıca bir sistem yaradılmalı idi:** "Güzəştli mənzillər"in satışı birbaşa aztəminatlı əhalinin sosial rifahının yüksəldilməsinə hesablanıb. Bu platformanın gələcək perspektivlərini, gələcəkdə daha çox mənzillərin inşası nəzərə alınaraq mənzil satışı üçün ayrıca bir sistem yaradılmalı və satışa mane ola biləcək bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Elə bir sistem yaradılmalıdır ki, güzəştlə mənzil əldə etmək hüququna sahib olan vətəndaşlar rahat şəkildə sistemə daxil olub, öz mənzillərini seçmək imkanı əldə etsinlər. MİDA tərəfindən həyata keçirilən satışları onlayn yox, növbəlilik prinsipi ilə də həyata keçirmək olar. Amma bu zaman sui-istifadə, qanun pozuntuları müşahidə oluna bilər. Ən yaxşısı MİDA heç bir dövlət platformasından asılı olmayan unikal sistem qurmalı və onlayn satışı davam etdirməlidir".

**Şəymən Bayramova**



# "Mehnur"un direktoru cəzalandırılmalıdır"

## Novella Cəfəroğlu: "Hər birimiz uşaqla necə rəftar etdiklərinə şahid olduq"

**"Qəddar qadın cəzalandırılmalıdır".**

Bu sözləri "Şərq"ə açıqlamasında hüquq müdafiəçisi Novella Cəfəroğlu "Mehnur" loqopedik reabilitasiya mərkəzində istintaqa cəlb olunan direktor, direktor köməkçisi və psixoloqun həbs edilməməsinə münasibət bildirərkən deyib. O, bu məsələnin araşdırılmasında iştirak etdiyini deyib: "Cinsindən asılı olmayaraq, hər kəs qanun qarşısında cavab verməlidir. Aldığımız məlumata əsasən, təqsirkarlar qadın cinsinin nümayəndələri olduğu üçün həbs edilməyib. Lakin hər birimiz uşaqla necə rəftar etdiklərinə şahid olduq. Millətin gözü qarşısında azyaşlıları vəhşicəsinə döyürlər.

Bəzən ərinin arvadına bıçaq qaldırması, boğmağa çalışması kimi xəbərlər eşidirik. Özünü müdafiə etmək üçün həmin qadınlar həyat yoldaşlarına xəsarət yetirir və onlara 10-15 il həbs cəzası verilir.

Amma sözügedən mərkəzin günahkarları tutulmur?! Başa düşürəm, qadındırlar, ürəyim ağrıyır. Lakin zərərçəkmiş şəxsin şikayəti təmin olunmalıdır ki, başqaları da bu durumdan güc almasın".

*Qeyd edək ki, "Mehnur" loqopedik reabilitasiya mərkəzində istintaqa cəlb olunan direktor, direktor köməkçisi və psixoloq həbs edilməyiblər.*

**Sücayət Mehti**

# Gələn il kənd təsərrüfatı prioritet sahə olacaq

## Hökumət inflyasiyanın qarşısını almaq üçün tədbirlər görür

**2023-cü il üçün dövlət büdcəsinin gəlirləri və xərcləri açıqlanıb. Layihədə gəlir 5, xərclər 3 faiz artır. Maliyyə Nazirliyinin məlumatında qeyd edilib ki, 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 30 milyard 720 milyon manat proqnozlaşdırılır. Bu da 2022-ci ilin proqnozu ilə müqayisədə 1522,9 milyon manat və yaxud 5,2 faiz çoxdur.**

Növbəti ildə dövlət büdcəsinin xərcləri isə 2022-ci illə müqayisədə 996,2 milyon manat və ya 3,1 faiz artımla 33 milyard 300 milyon manat proqnozlaşdırılır.

Builki sənəddə neftin bir bareli 45 dollar götürülüb. Gələn ilin layihəsində isə bu rəqəm 50 dollar təşkil edir. Hazırda dünya bazarında Azərbaycan neftinin bir bareli 95 dollardan baha satılır.

**İqtisadçı-ekspert Əyyub Kərimli deyib ki, açıqlanan məlumatlara əsasən 2023-cü ildə Azərbaycanın icmal büdcəsinin gəlirlərinin 32 939,4 milyon manat, xərclərinin isə 37 883 milyon manat olacağı gözlənilir:**

"Bu isə cari ilin gəlir göstəricilərinə əsasən 3 milyard 721 milyon manat və ya 10.2 faiz azalma, xərc göstəricilərinə əsasən də 2 milyard 342 milyon manat və ya 6.6 faiz azdır. Son nəticədə icmal büdcədə 4 943,6 milyon manat kəsir yaranacaq.



Gələn ilin dövlət büdcəsində təhsil bölməsi üzrə 10 proqramın həyata keçirilməsi, təhsil xərclərinin, o cümlədən dövlət sifarişi ilə ali təhsil alanların, təqaüd kvotasının artırılmasının və tələbə kreditinin maliyyə təminatı, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə artan tələbatın qarşılanması üçün 517 milyon manat əlavə vəsaitin ayrılması proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 13.3 faiz artım deməkdir.

Kənd təsərrüfatı sahəsi üzrə 7 proqramın həyata keçirilməsi üçün 204. 8 milyon manat və ya 20 faiz artım nəzərdə tutulub.

Ətraf mühitin mühafizəsi üzrə cari ildən 24 faiz çox əlavə vəsaitin ayrılması proqnozlaşdırılır.

İşğaldan azad edilmiş ərazilər üzrə bərpa və yenidənqurma işlərinin, böyük qayıdış planının təmin edilməsi, ərazilərdə müasir infrastrukturların, o cümlədən hərbi infrastrukturların tikintisi üçün də 3 milyarda yaxın vəsaitin ayrılması nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 9 faiz artım deməkdir".

İqtisadçı deyib ki, gələn il əsas diqqət işğaldan azad edilmiş torpaqlarımızın bərpa və yenidənqurması və yerli kənd təsərrüfatı məhsullarının istehsalı dövlət üçün prioritet məsələ olacaq: "Qeyri-neft sektorunun inkişafına diqqət artacaq və idxaldan asılılıq minimuma endiriləcək. Bir çox sahələr üzrə vergi güzəştlərinin tətbiqi də gündəmdədir. Bütün bunlar isə ərzaq təhlükəsizliyi və yerli istehsal hesabına daxili tələbatın ödənilməsinə hesablanıb. Ölkədə inflyasiya həddinin aşağı endirilməsi baxımından gələn ilin dövlət büdcəsində nəzərdə tutulan bu xərclər məqsədəuyğundur".

*Ekspertin sözlərinə görə, alternativ və bərpaolunan enerji istehsalına tətbiq olunan vergi güzəştləri də bu sahənin inkişafına təkan verəcək.*

**Şəymən**

# Son istifadə tarixi dəyişdirilir, vəssalam!

## Vaxtı keçmiş məhsullar yenidən bazara satışa çıxarılır



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlaka yararsız qida məhsullarını məhv edib. Bu barədə Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Bildirilib ki, "Aznur" MMC-nin Agentliyə müraciəti əsasında istehlaka yararsız və istifadə müddəti bitmiş ümumi çəkisi 1 400 kq süd və ət məhsulları "Təhlükəli Tullantılar" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.**

*Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov məsələ ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, Mərkəzi Avropa ölkələrində istifadə müddəti sona yaxınlaşan məhsulların xeyli ucuz qiymətə satıldığı xüsusi mağazalar var:* "Lakin yararlılıq vaxtı keçmiş məhsulların satışı burda da qadağandır. AİB Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə üç ay öncə Sumqayıt poliqonunda bir ayın içində iki müəssisənin yüz tona qədər yararlılıq müddəti keçmiş süd məhsullarının məhv olunmasında iştirak etdi. Soruşulur ki, bəs niyə bu məhsullar zamanında istehlakçılara aşağı qiymətlə təklif olunmayıb?

Biz istehlakçıların hüquqlarını qoruyan təşkilat olaraq bunun tərəfdarıyıq. Amma bazarda haqsız rəqabət mühitinin yaranmaması üçün bu addım atılmır. Əgər belə olsa, əhali həmin məhsullara üz tutar, digər istehsalçılar isə iflasa uğrayar.

Dövlətin əsas siyasəti biznesin inkişafıdır. Buna görə də o, Mərkəzi Asiya ölkələrində olan qeyd etdiyim mağazaların bizdə də olmasını istəmir.

Müəyyən hesablamalar aparıldıqdan sonra məlum olur ki, həmin məhsulların məhv edilməsi daha sərfəlidir, nəinki insanlara ucuz və havayı təklif olunması.

Ona görə bu məsələdə belə bir anormal hal hökm sürür. İstehlakçılar bundan narazıdır. Üstəlik, istifadə müddəti keçmiş məhsullar hansısa heyvan yeminə də çevrilə bilər. Təəssüf ki, bizdə o da yoxdur. Yararlılıq müddəti keçmiş məhsulların istehlakçılara verilməməsi məsələsi də AİB-nin diqqətindədir. Elə müəssisələr var ki, vaxtı keçmiş bu məhsulların üzərindən son istifadə tarixini çıxarıb yenidən düzəliş edərək satışa çıxarırlar. AİB bunun tərəfdarı da deyil. Məhz belə səbəblərdən biz məhvetmə alqoritmini daha düzgün hesab edirik".

**Günəş Mərd**


**"Bakı Hərrac Mərkəzi" MMC**

Lot 362/22. 1) Sumqayıt şəhəri, 1-ci mikrorayon, ev 1, mənzil 4. İlkin satış qiyməti 38000 manat; 2) "MUTSUBİSHİ PAJERO" markalı, 90 UE 615 dövlət nömrə nişanlı avtomobil. İlkin satış qiyməti 16000 manat; Açıq hərrac 07 oktyabr 2022 il tarixdə saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 5%-i həcmində beh hərrac təşkilatına ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçi icra şöbəsinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri. Ünvan: Bakı şəh, Səbail ray, Badamdar qəsəbəsi, Badamdar şössesi 27. ("AVİS" aptekin arxası). Tel: 055-206-66-67, rəsmi sayt: http://e-lot.az

**Elan**

Məmmədov Azər Əsabəli oğluna məxsus "Monolit Stone" Məhdud Məsuliyyətli Cəmiyyətinin möhürü itdiyi üçün etibarsız sayılır.



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2631




# Qiyməti 777 min dollardır

## Yaponiya istehsalı olan uçan velosiped ABŞ-da debüt edib

**Yapon startap şirkəti ”AERWINS” tərəfindən hazırlanmış uçan velosiped Xturismo ABŞ-da ”Detroit” avtosalonunda nümayiş etdirilib.**

40 dəqiqə havada qala bilən və saatda 100 kilometr sürətə çatan uçan velosiped Xturismo həvəskarlarından yüksək qiymət alıb. ”AERWINS Technology”nin qurucu prezidenti Şuhei Komatsu bildirib ki, şirkət pilotsuz uçuş aparatları ilə yanaşı, idarə olunan təyyarələr də istehsal etməyə başlayacaq. Komatsu artıq Yaponiyada satışa çıxarılan Xturismo modelinin ABŞ satış qiymətinin 777 min dollar olacağının gözlənildiyini açıqlayıb. Bundan əlavə, Komatsu şirkətin 2025-ci ilə qədər qiyməti 50 min dollara endirəcək daha kiçik model üzərində işləməyə davam etdiyini bildirib.

**Turan**

# Səmərqənddə kuryoz olay...

## Pakistanın baş naziri tərcümə qulaqcığını taxmaqda çətinlik çəkib




**Rusiya Prezidenti Vladimir Putin və Pakistanın Baş naziri Şahbaz Şərif Özbəkistanın Səmərqənd şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammiti öncəsi görüşüb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, görüş zamanı maraqlı anlar yaşanıb. Pakistanın baş naziri tərcümə qulaqcığını taxmaqda çətinlik çəkib. Baş nazir kənardan yardım istəyib. Ancaq qulaqcıq yenə düşüb. Bu görüntüləri Putin də gülüşlə qarşılayıb. Nəhayət problem qısa müddətdə həllini tapıb. Hadisə dünya mediasının gündəmini də zəbt edib.

**Turan**





# 9 yaşlı uşaq dəhşət yaşadı

## Həkimlər onun boğazından dəmir parçasını çıxarıblar

**İstanbulun Bahçelievler rayonunda barmaqlıqlardan tullanarkən müvazinətini itirən 9 yaşlı Ahmet Daniçin boğazına dəmir girib. Uşaq boğazında dəmir məhəccərlə xəstəxanaya çatdırılıb. Daniç 2 gün reanimasiyada həyat mübarizəsi verib.**

Bazar ertəsi saat 16.30-da evlərinin qarşısında oyun oynayan Ahmet məhəccərlərdən tullanmaq istəyərkən müvazinətini itirib. Bu zaman onun boğazına dəmir ilişib. Ətrafdakı insanlar uşağı hərəkətsiz saxlayıb və yardımın gəlməsini gözləyiblər. Hadisə yerinə yanğınsöndürənlər, sağlamlıq və polis qrupları sövq edilib. Sağlamlıq qrupları uşaq nəfəs alsın deyə venadaxili xətt açaraq oksigen veriblər. Xilasetmə qrupları uşağı xilas etmək üçün əvvəlcə dəmir çubuğu kəsiblər. Sonra Daniç boğazında qalan dəmir parçası ilə xəstəxanaya aparılıb. Burada ilk müdaxilədən sonra Daniç Cərrahpaşa xəstəxanasına çatdırılıb. Əməliyyatla uşağın boğazındakı dəmir parçası çıxarılıb. İki gün reanimasiya şöbəsində müalicə alan Daniçin səhhətinin yaxşı olduğu bildirilir.

Hadisə zamanı uşağı hərəkətsiz saxlamağa çalışan Yusuf  Dağ, ”Uşaq qışqırırdı, depressiyaya düşdüm. Dəmir boğazına girmişdi, bu, yanağından görünürdü. Onu hərəkətsiz saxlamağa çalışırdım. Yanğınsöndürmə bölməsi və həkim briqadası gəldi. Damar yolu açıldı, oksigen verildi. ”Ahmet, necəsən” deyirdim, dəmir dilinə qədər çatdığı üçün düz-əməlli danışa bilmirdi” deyə bildirib.



Uşağın atası Lokman Daniç oğlunun son durumu ilə bağlı bunları söyləyib: ”Şükürlər olsun ki, salamatçılıqdı,  təxminən yarım saat əvvəl reanimasiyadan çıxdı. Yaxınlıqdakı bütün binalarda belə qoruyucu barmaqlıqlar var. Bu, sözün əsl mənasında nizə, uşaqlar üçün ölüm tələsidir. Başqa uşaqların başına gəlməsin, başqa ailələr zərər görməməlidir”.

**TuranCan**

# Hadisə mövzusu onu usandırdı

## Mehmet instaqram və tviter hesablarını bağlayıb



**Xəbər verdiyimiz kimi, türkiyəli məşhur müğənni Hadisə ilə həyat yoldaşı Mehmet Dinçərlər boşanır.**

**Axşam.az xəbər verir ki, hər ikisi bununla bağlı sosial media hesablarında açıqlama yaydıqdan sonra Mehmet instaqram və tviter hesablarını bağlayıb.**

**Mehmetin 2013-cü ildə yazdığı bir status isə sosial şəbəkədə müzakirələrə səbəb olub. Belə ki, o, anası ilə fotosunu yayımlayaraq ”Eşqin ömürboyu davam etdiyinə inana bilərəm. Amma adı sadəcə ”ana”dırsa” sözlərini yazıb.**

***Qeyd edək ki, iş adamı sonuncu yazısında boşanma mərhələsində hər kəsdən ona və ailəsinə sayqı göstərilməsini xahiş edib.***

# Ağdaşda 4 yaşlı uşaq siçan dərmanından zəhərləndi



**Ağdaşda zəhərlənmə hadisəsi olub.**

**”Medicina” xəbər verir ki, dörd yaşlı Ə.Məmmədov bitkilərin ziyanvericilərinə qarşı olan dərmanı qəbul edib. Nəticədə onun halı pisləşib. Azyaşlı zəhərlənmə diaqnozu ilə rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.**

# Rusiyada maska rejimi bərpa olunur

## Metro, nəqliyyat və dövlət idarələrində maska ilə giriş məcburidir



**Rusiyada kovidə yoluxma pik həddə çatdığından, yctimai yerlərdə maskaların məcburi taxılmasının tətbiqinə başlanılıb.**

**”Medicina” xəbər verir ki, 85 rayonunda yalnız xəstəxanalara giriş zamanı, Altay Respublikasında isə ticarət, iaşə obyektləri, nəqliyyat, çoxfunksiyalı mərkəzlər, banklar, poçt şöbələri və dövlət orqanlarında qəbul xidmətlərində çalışanların maskadan istifadəsi məcburi elan olunub.**

**Metro, nəqliyyat və dövlət idarələrində maska ilə giriş məcburidir.**



# Kral Çarlz medalları necə qazandı?

## Heç bir savaşda iştirak etməyib

**İngiltərə kralı Çarlzın hərbi forması və onlarla medalı diqqət çəkir. Məlumdur ki, əsgərlər müharibədən, mühüm nailiyyətlərdən və tapşırıqlardan sonra lentlər, döş nişanları və medallar almaq hüququna malikdirlər. 4 ulduzlu general rütbəsinə malik olan Çarlz kral donanmasında və hava qüvvələrində xidmət edib. Kral Çarlz Folklend adaları medalı ilə təltif edilmiş qardaşı Endryudan fərqli olaraq heç bir müharibədə fəal iştirak etməyib. Bəs niyə bu qədər medal taxır? Kralın medalları necə qazandığına daha yaxından nəzər salaq.**

Kraliça Elizabetin ölümündən sonra dünya yeni kralı izləyir. Kral Çarlz mərasimlərdə hərbi formasını və medallarını geyinərkən görünür. Kral may ayında parlamentin açılışı zamanı anasının yerinə əyləşərkən medallarla görüntülənmişdi.

Kral indi kraliçanın tabutunu daşıyan kortejdə və bir çox mühüm tədbirlərdə medallarını taxarkən görünür.

Bəs, monarx nə vaxtsa silahlı qüvvələrdə xidmət edibmi və onun hansı medalları var?

Çarlz Kral Hərbi Hava Qüvvələrində (RAF) və Kral Dəniz Qüvvələrində xidmət edib. Kembricdə RAF təhsili alıb. Çarlz daha sonra dəniz karyerasına başlayıb və Dartmut Kral Dəniz Kollecində altı həftəlik kursa yazılıb.

Daha sonra o, HMS Norfolk idarə olunan raket esmineslərində və HMS Minerva və HMS Yupiter freqatlarında xidmət edib.

O, 1974-cü ildə RNAS Yeovilton ilə vertolyot pilotu kimi vəsiqə qazanıb və sonra HMS Hermes-də 845 Hərbi Hava Qüvvələrinə qatılıb.

Kral Çarlz bu medalları heç bir müharibədə və ya münaqişədə qazanmayıb.

Kralın medalları müharibə və əməliyyat növü deyil, lakin bu medallar onun bəzi xidmətlərinə, yerlərinə, mühüm günlərə görə verilib. Çarlzın yaxasındakı medallardan bəziləri anası Kraliçanın xidmət etdiyi 30-cu və 50-ci ildönümü qeyd etmələri ilə üst-üstə düşən günlərdə yubiley və ya mühüm qeyd etmə mərasimlərində verilən medallardır. Kral anasının taxta çıxması və kraliça kimi davam edən hakimiyyətini qeyd etməsi kimi hadisələrlə bağlı medallar taxır.

Kralın medallarının təsviri belədir:

- Kraliçanın Xidmət Ordeni (Yeni Zelandiya)
- Tacqoyma medalı
- Gümüş yubiley medalı
- Qızıl Yubiley medalı
- Brilyant yubiley medalı
- Dəniz Qüvvələrində uzun xidmətində (yaxşı davranışına görə) (LSGC)
- Kanada qüvvələrinin dekorasiyası (üç əlavə xidmət ödülü)
- Yeni Zelandiya Xatirə Medalı
- Yeni Zelandiya Silahlı Qüvvələri Mükafatı

Kral həmçinin Hamam ordeni, Fəxri xidmətə görə ordeni, Qarter ordeni, Qarter ordeni və Thistle ordeni taxır. Çarlz 1958-ci ildə qazandığı ən nüfuzlu Britaniya cəngavər rütbəsi olan Qarter ulduzunu da daşıyır.

Bunların altında mərkəzdə Müqəddəs Georgi xaçı olan böyük gümüş ulduz onun cəngavər olduğunu göstərir. Bu, 1958-ci ildə Uels şahzadəsi seçilərkən mükafatlandırıldı.

Kral, Uels şahzadəsi 58 yaşına çatanda o, ordu generalı, donanma admiralı və RAF marşalı da daxil olmaqla, hər bir silahlı xidmətdə dörd ulduzlu general rütbəsinə yüksəlmişdi.

# Hakimə yalvardı

## “Mən hər gün əziyyət çəkirəm”






**Bir zamanlar Hollivudun ən məşhur kinorejissoru olan Harvi Vaynşteyn 2020-ci ilin fevral ayından həbsdədir və ABŞ məhkəməsinin qərarı ilə qadınlara qarşı çoxsaylı zorlama və cinsi təcavüz faktlarına görə 23 il həbs cəzasına məhkum edilib.**

70 yaşlı Vaynşteyn həbsxana həkimlərinin çürük dişlərini çəkib ağzında boşluqlar buraxdığına görə, hakimdən şəxsi diş həkiminə getməsinə icazə verilməsini xahiş edib.

Vaynşteyn məhkəmədə ”Bu, fövqəladə haldır, diş həkimi üçün pul ödəyəcəm. Bu yalnız birdəfəlik səfər olacaq. Mən hər gün əziyyət çəkirəm. Ağzımda dişlərim yoxdur, yemək yeyə bilmirəm” deyə yalvarıb.

Məhbusun vəkili Mark Verksman deyib ki, prodüserin şəxsi diş həkiminə getməsinə icazə verilməməsi onun konstitusiya hüquqlarının pozulması deməkdir. O, həmçinin əlavə edib ki, məhkəmə prosesində Vaynşteynin dişlərinin olmaması onu gülməli göstərəcək.

Vaynşteynin oktyabrın 10-da 2004-2013-cü illər arasında Los-Anceles və Beverli Hillsdə beş qadının iştirak etdiyi 11 zorlama və cinsi təcavüz faktı üzrə məhkəmə qarşısına çıxacağı gözlənilir.

Ümumilikdə 90-a yaxın qadın Vaynşteyni təcavüz və ya hücumda ittiham edib.

**Turan**

# Qorxusundan 15 il şişlə yaşayıb

## Qadının uşaqlığından 10 kq şiş çıxarıldı



**Podmoskovye əyalətinin həkiləri qadından 10 kiloqramlıq şiş çıxarıblar**

”Medicina” xəbər verir ki, Rozanov adına xəstəxananın cərrahları qadın xəstədə uşağlığın nəhəng mioması diaqnozu qoyublar.

Törəmə uzun illərdir qadında var imiş, o əməliyyatdan qorxaraq, 15 il bu şişlə yaşayıb və illər ərzində şiş böyüyüb. Nəhəng şiş 40 həftəlik hamiləlik ölçüsündə idi.

Uşaqlıq bu qədər yükə dözməyərək qanaxma verirdi.

2 saat davam edən əməliyyat zamanı ancaq mioma xaric edilib. Onun xoşxassəli olduğu bildirilib.